# YENİ BƏYAZİD QƏZASININ KAMERAL TƏSVİRİ 1873-cü il

*Göyçə qarapapaqlarının Rusiya işğalına qarşı qəhrəmancasına mübarizə aparmış rəisi Nağı xanın xatirəsinə*

**Tərcümə, tərtib, giriş mətni, qeyd və şərhlərin müəllifi**
**NAZİR ƏHMƏDLİ**

**"Elm və təhsil"**
**Bakı - 2024**

***AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu Elmi Şurasının qərarı ilə nəşr olunur***

**Layihə rəhbəri**
**və elmi redaktoru:** **K.Şükürov,** *t.ü.e.d., professor, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı*

**Rəyçilər:** **İ.Məmmədova,** *t.ü.f.d., dosent, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı*

**N.Mustafa,** *t.ü.f.d., Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı*

**Bakı, “Elm və təhsil”, 2024, 416 səh.**

*Cənubi Qafqazın işğalından sonra Rusiyanın dövlət məmurları yeni ərazilərdə vergi tətbiq etmək məqsədi ilə siyahıyaalmalar keçirmiş və kameral təsvirlər tərtib etmişlər. İrəvan əyalətinin Göyçə və Dərəçiçək mahallarının yerində yaradılmış Yeni Bəyazid qəzasının 1873-cü ilə aid kameral təsviri də onların arasındadlr. Kitabda Azərbaycan tarixşünaslığında ilk dəfə Göyçə toponiminin etimologiyası izah edilmişdir.*

**ISBN 978-9952-8176-2-1**

**© Nazir ƏHMƏDLİ , 2024**

# İÇİNDƏKİLƏR

**QƏRBİ AZƏRBAYCANIN YENİ BƏYAZİD QƏZASI....................7**
**ABDALAĞALI kəndi....................55**
**AĞBULAQ kəndi....................55**
**HAXVERƏN kəndi....................60**
**YUXARI ADIYAMAN kəndi....................63**
**AŞAĞI ADIYAMAN kəndi....................63**
**AĞZIBİR kəndi....................63**
**AĞQALA kəndi....................68**
**AĞKİLSƏ kəndi....................70**
**ƏYRİVƏNK kəndi....................73**
**ALAPARS kəndi....................77**
**ALEKSANDROVKA kəndi....................77**
**ƏLİQIRIQ kəndi....................78**
**YUXARI ALÇALI kəndi....................78**
**AŞAĞI ALÇALI kəndi....................83**
**ARDANIŞ kəndi....................83**
**ARZAKAN kəndi....................88**
**HƏTƏMXAN kəndi....................91**
**AXPARA kəndi....................92**
**YUXARI AXTI kəndi....................92**
**AŞAĞI AXTI kəndi....................92**
**AŞAĞI AXTI (RUS AXTASI) kəndi....................92**
**BABAKİŞİ kəndi....................93**
**BASARKEÇƏR kəndi....................93**
**BAŞKƏND kəndi....................93**
**BIĞLI HÜSEYN-SARAÇLI kəndi....................93**
**BJNİ kəndi....................98**
**BABACAN DƏRƏSİ kəndi....................103**
**VƏLİAĞALI kəndi....................104**
**HACI MUXAN kəndi....................105**
**GÖLKƏND kəndi....................109**

**GÖYKİLSƏ kəndi ........................................................ 110**
**GÖZƏLDƏRƏ kəndi ..................................................... 113**
**GÜMÜŞ kəndi ............................................................ 114**
**HÜSEYNQULUAĞALI kəndi ........................................ 117**
**GÖDƏKBULAQ kəndi .................................................. 124**
**DƏDƏ QIŞLAĞI kəndi ................................................ 125**
**DƏLLƏKLİ kəndi ........................................................ 127**
**DƏLİQARDAŞ kəndi ................................................... 129**
**DƏLİPAŞA kəndi ........................................................ 130**
**DƏLLƏR kəndi ........................................................... 133**
**DƏLİKDAŞ kəndi ........................................................ 136**
**CİL kəndi .................................................................. 136**
**XARABA DƏVƏ kəndi ................................................. 140**
**YENI BƏYAZİD şəhəri ................................................ 142**
**YELENOVKA kəndi ..................................................... 143**
**YELLİCƏ kəndi .......................................................... 143**
**YERANİS kəndi .......................................................... 148**
**ZAĞALI kəndi ............................................................ 148**
**ZAR kəndi .................................................................. 149**
**ZARZEBİL kəndi ......................................................... 154**
**ZOD kəndi .................................................................. 159**
**ZOLAXAÇ kəndi .......................................................... 169**
**İNƏKDAĞI kəndi ......................................................... 170**
**QANLI ALLAHVERDİ kəndi ........................................ 173**
**KARVANSARA kəndi ................................................... 175**
**BİRİNCİ QARAQALA kəndi ........................................ 176**
**İKİNCİ QARAQALA kəndi .......................................... 177**
**YUXARI QARANLIQ kəndi .......................................... 182**
**AŞAĞI QARANLIQ kəndi ............................................ 182**
**KƏSƏMƏN kəndi ........................................................ 182**
**KAXSU kəndi .............................................................. 186**
**YENİ KEYTİ kəndi ....................................................... 187**
**QIZILBULAQ kəndi ..................................................... 191**
**SUBATAN kəndi .......................................................... 200**
**QIZILVƏNK kəndi ....................................................... 202**

**BİRİNCİ QIZIL XARABA kəndi ...................................... 207**
**QIRXBULAQ kəndi ........................................................... 210**
**İKİNCİ QIZILXARABA kəndi ........................................... 210**
**QIŞLAQ kəndi .................................................................. 216**
**KOLANIQIRILAN kəndi .................................................. 216**
**KOMADZOR kəndi ........................................................... 216**
**KONSTANTİNOVKA kəndi ............................................. 217**
**QORUQGÜNEY kəndi ....................................................... 217**
**KORÇALI kəndi ................................................................ 219**
**KOSAMƏMMƏD kəndi ..................................................... 220**
**QOŞABULAQ kəndi ......................................................... 221**
**QUYLU kəndi ................................................................... 225**
**QUŞÇU DƏRƏSİ kəndi ..................................................... 227**
**KUZƏCIQ kəndi ............................................................... 229**
**KAMAL kəndi .................................................................. 230**
**KƏNKAN kəndi ............................................................... 234**
**KƏRKİBAŞ kəndi ............................................................. 240**
**KƏRİMKƏND kəndi ......................................................... 242**
**QIZQALA kəndi ............................................................... 243**
**KARVANSARA kəndi ...................................................... 245**
**QABAQLI kəndi ............................................................... 248**
**QULƏLİ kəndi .................................................................. 249**
**QAYABAŞI kəndi ............................................................. 250**
**ÇOBANGƏRƏKMƏZ kəndi ............................................. 252**
**MƏDİNƏ kəndi ................................................................. 252**
**BÖYÜK MƏZRƏ kəndi ..................................................... 255**
**KİÇİK MƏZRƏ kəndi ....................................................... 267**
**MAKRAVƏNK kəndi ........................................................ 274**
**NOVOMİXAYLOVKA kəndi ........................................... 275**
**NADEJDİNO kəndi ........................................................... 275**
**NƏRƏDÜZ kəndi .............................................................. 275**
**NURNUS kəndi ................................................................. 276**
**NOVONİKOLAYEVKA kəndi ......................................... 280**
**OĞRUCA kəndi ................................................................. 280**
**OZANLAR kəndi .............................................................. 285**

**ÖRDƏKLİ kəndi ................................................ 287**
**PAŞA kəndi ................................................ 287**
**RƏHMANKƏND ................................................ 287**
**RANDAMAL kəndi ................................................ 290**
**SLİSNOVKA kəndi ................................................ 291**
**SOLAK kəndi ................................................ 291**
**SOYUQBULAQ kəndi ................................................ 291**
**SULTANƏLİ QIŞLAĞI kəndi ................................................ 293**
**SUXOFONTAN kəndi ................................................ 296**
**SADANAĞAÇ kəndi ................................................ 296**
**SARIYAQUB kəndi ................................................ 298**
**TƏZƏKƏND kəndi ................................................ 303**
**TAYÇARIQ kəndi ................................................ 303**
**TƏKƏLİ kəndi ................................................ 303**
**DAŞKƏND kəndi ................................................ 307**
**TEZXARAB kəndi ................................................ 314**
**TOXLUCA kəndi ................................................ 315**
**TÜSKÜLÜ kəndi ................................................ 320**
**TUTMAŞEN kəndi ................................................ 321**
**ULAŞLI kəndi ................................................ 321**
**FƏRRUX kəndi ................................................ 323**
**XARTLIQ kəndi ................................................ 323**
**TSAMAKAPERT kəndi ................................................ 326**
**TSAXKUNK kəndi ................................................ 326**
**ÇIRÇIR kəndi ................................................ 326**
**ÇUBUQLU kəndi ................................................ 326**
**ÇAMURLİ kəndi ................................................ 327**
**ŞƏHRİZ kəndi ................................................ 329**
**ŞİŞQAYA kəndi ................................................ 330**
**ŞORCA kəndi ................................................ 337**
**YAYCI kəndi ................................................ 339**
**YARPIZLI kəndi ................................................ 339**
**YANIQ kəndi ................................................ 344**
**ƏLAVƏLƏR ................................................ 349**
**BİBLİOQRAFİYA ................................................ 411**

# QƏRBİ AZƏRBAYCANIN YENİ BƏYAZİD QƏZASI

## *1.Bölgə haqqında tarixi məlumat və "Göyçə" toponimi haqqında*

1849-cu ildə yeni yaradılan İrəvan quberniyası 5 qəzadan ibarət idi. Bu qəzalardan biri də Göyçə və Dərəçiçək nahiyələrinin yerində təşkil edilən Yeni Bəyazid qəzası olmuşdur. Ədirnə müqaviləsindən (1829) sonra Türkiyənin Qars və Bəyazid paşalıqlarından Göyçə mahalına 1.485, Dərəçiçək mahalına isə İrandan 575, Türkiyədən 539 erməni ailəsi köçürülmüşdü.[1] Həmin ailələrinin əksəriyyəti Bəyazid paşalığından olduğuna görə yeni yaradılan qəzanı Yeni Bəyazid (Novobəyazid) adlandırmışdılar.

İrəvan xanlığının ən böyük mahallarından biri olan Göyçə mahalı şimalda Yelizavetpol əyaləti, Qazax və Şəmşəddil distansiyaları, qərbdə Pəmbək əyaləti, Dərəçiçək mahalı və Qırxbulaq mahalının bir hissəsi, cənubda Qırxbulaq, Gərnibasar və Vedibasar mahalları, şərqdə Dərələyəz mahalı və Qarabağ vilayəti ilə həmsərhəd idi[2].

Dərəçiçək mahalı isə şimalda Pəmbək əyaləti və Qazax distansiyası, şərqdə Göyçə gölü, cənubda Ağmanqal dağı və Qırxbulaq mahalı, qərbdə isə Qarnıyarıq dağının şimal vadiləri və Abaran mahalı ilə həmsərhəd idi[3].

---

[1] Bax: İrəvan əyalətinin kameral təsviri. IV cild. Göyçə və Dərəçiçək mahallarının kameral təsviri (Tərcümə, tərtib, giriş mətni, qeyd və şərhlərin müəllifi N.Əhmədli). Bakı, 2021.

[2] Göyçə mahalının kameral təsviri.1831-ci il. Erm.Mİlli Arxivi. F.90, s.1, s.v.88.

[3] Dərəçiçək mahalının kameral təsviri.1831-ci il. Erm. Milli Arxivi, F.90, s.1, s.v.83.

Göyçə mahalı Göyçə gölünün ətrafında, bu gölün əmələ gətirdiyi çökəklikdə yerləşirdi. Bu çökəklik şimalda Pəmbək və Şahdağ dağ silsilələri, qərbdə Eşşək meydanı və Ağmanqal dağ silsilələri, cənubda Cənubi Göyçə dağ silsiləsi, şərqdə isə Qonqur – Alangəz dağ silsiləsi ilə əhatə olunmuşdur. Düzbucaqlı üçbucaq şəklində olan bu ərazi Zəngi çayının Göyçə gölündən çıxdığı yer istisna olmaqla, tam qapalıdır. Göyçə çökəkliyinin ən uzun yeri 120 verst, sahəsi 4.200 kv. verstdir ki, onun 1204,2 kv. versti Göyçə gölünün payına düşür. Gölün cənub-şərq burnu yaxınlığında Məzrə düzənliyi yerləşir. Dərəçiçək vadisi Göyçə gölü çökəkliyi ilə bitişikdir.[4]

"Göyçə" adına ilk dəfə Zeynəddin bin Həmdullah Qəzvininin "Zeyle tarix-e qozide" ("Seçilmiş tarixə əlavə") əsərində rast gəlinir. Hicri-qəməri tarixlə 744-cü ildə (miladi 1343-1344-cü il) baş vermiş hadisələri nəql edən Qəzvini yazır: "Əmirlər (çobanilər) Şənb-i Qazanda olduqları vaxt xəbər çatdı ki, Sultan Əbu Səidin Ruma göndərdiyi və Qarahisar qalasında məhbus olan əmir Sürğan əmir Çoban oğlu qalanın kutvalını öldürüb çoxlu adamla bu tərəfə gəlir. Yağı Basdı və Məlik Əşrəf onu qarşılamaq adı ilə Naxçıvana və Şərura getdilər və Məmuriyyədə bir-biri ilə qarşılaşdılar. Oraya çoxlu qoşun toplandı. Oradan Qəsrtağa və Əmir Çobanın yaylağı olan və həqiqətən çox gözəl yay məskəni sayılan Gökçə Dənizə getdilər. İki

[4] Памятная книжка Эриванской губернии на 1902 годь. Эривань, 1902, Ч.4, стр.13.

aya yaxın orada qaldılar"[5]. "Surğan və Yağı Basdı Saray Süleyman Bahadır yolu ilə Naxçıvanda Məstəkuhun ətəklərindən keçib Məmuriyyədə məskən saldılar. Sonrakı gün Araz çayından keçib Gökçə Dəniz yolu ilə Arrana getdilər"[6].

Əmir Teymurun 1386-cı ildəki yürüşlərindən bəhs edən müəllif daha sonra yazır: "Təbrizin xaraba qaldığından, rəiyyətin taqətsizliyindən və çıxılmaz vəziyyətindən xəbərdar olan kimi mərhəmət göstərib onlardan yalnız nal haqqı aldı və o vəcihin (toplanmasını) xacə Nizaməddin Yəhya Semnaniyə tapşırdı, özü Təbrizdən Naxçıvan yolu ilə Gökçə Dənizə getdi, bir gün Əlincə qalasının ətəklərində vuruşdu və qışda Qarabağa gedib orada qışladı".[7]

Göründüyü kimi ərazinin adından "Gökçə Dəniz" olaraq bəhs edilir.

TKA-da saxlanan 1584-1585-ci illərə aid edilən 139 nömrəli təhrir dəftərində Türkiyənin Kırşehir sancağının Kırşehir nahiyəsində Gökçə Dəniz kənd adına rast gəlinir.[8]

Tədqiqatçıların yazıya alınma tarixini XV əsrin sonlarına aid etdikləri ***"Kitabi-Dədə Qorqud"***da da bu ada iki yerdə rast gəlinir. "Qazan bəy oğlu Uruz bəyin dustaq edildiyi boy"un Drezden nüsxəsinin 126-cı səhifəsində Qazan xanın dilindən deyilir: "Mən bu oğlanı alayın, ava gedəyin. Yedi günlük azığa çəqayın. Ox atdığım yerləri, qılıç çalıb baş kəsdiyim yerləri göstərəyim. Kafir sərhəddinə, Cızığlara, Ağlağana, Gökçə

---

[5] Zeynəddin bin Həmdullah Qəzvini. Zeyle tarix-e qozide ("Seçilmiş tarixə əlavə"). Bakı, 1990, s.16.

[6] Orada, s.18.

[7] Orada, s.52.

[8] Halaçoğlu Y. Anadoluda Aşiretler, Cemaatler, Oymaklar (1453-1650). İstanbul, 2011, s.1557.

dağa aluban çıqayın. Sonra oğlana gərək olur, a bəglər!" – dedi.[9]

"Uzun Qoca oğlu Səgrək boyu"nda isə belə deyilir (Drezden nüsxəsi, 255-ci səh.): "Meyxanədə beş gün yemə-içmə oldı. Andan Şiröküz ucundan Gökcə dənizə dəkin el çarpdı".[10]

"Gökçə dağı" ifadəsinin meydana çıxdığı ilk yazılı əsərin hələlik "Kitabi – Dədə Qorqud" olduğu anlaşılır.

"Gökçə" adının inzibati - ərazi vahidi kimi işlədilməsinə ilk dəfə Qaraqoyunlu hökmdarı Cahanşahın (1436-1467) fərmanında rast gəlinir. Onun 1449-cu ildən sonra, 1462-ci ildən əvvəl imzaladığı, tarix qoyulmayan bir fərmanı var ki, burada "Göyçə vilayəti" ifadəsi işlədilir.[11]

Azərbaycan Ağqoyunlu hökmdarı Uzun Həsənin 1468-ci, I Şah İsmayılın isə 1503-cü il tarixli fərmanlarında da Göyçə vilayətinin adı çəkilir[12].

Uzun Həsənin (1468-1478) tapşırığı ilə yazılmış "Oğuznamə"də - Əbubəkr Tehraninin "Kitabi – Diyarbəkriyyə" əsərində oğuz türklərinin soy-kökündə duran Oğuz xaqanın Göyçə dənizi ətrafında yaşadığı və burada dəfn olunduğu qeyd edilir. Müəllifə görə xanlar xanı Bayındır xan və bir çox oğuz sərkərdələri də özlərinin ata-baba yurdu olan bu diyarda fəaliyyət göstərmiş, burada dünyalarını dəyişmiş, burada dəfn olunmuşlar.[13]

---

[9] Kitabi – Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər (Tərtib edəni prof. S.Əlizadə, nəşrə hazırlayanı, redaktoru və ön sözün müəllifi prof. T.Hacıyev). Bakı, 2004, s.80.

[10] Orada, s.145.

[11] Персидские документы Матенадарана (указы, сост. А.Д.Папазян), вып. I, (XV – XVII вв.). Ереван, 1956, стр.164.

[12] Там же.

[13] Əbubəkr Tehrani. Kitabi – Diyarbəkriyyə (Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilərin müəllifi R.Şükürova). Bakı, 1998, s. 46-47.

Bəzi tədqiqatçılar, o cümlədən İ.Şopen “Göyçə” sözünün etimologiyasını “göy”, “mavi” sözü ilə bağlamağa çalışsalar da,[14] araşdırmalarımız nəticəsində belə bir ehtimal irəli sürə bilərik ki, bu toponimlər bir vaxt buralarda yaşamış ***gökçə/göyçə*** adlı türk tayfasının adından yaranmışdır.

Anadolu türkmən yörüklərindən Tarsus bölgəsində yaşayan 96 camaatdan ibarət ***gökçəli/göyçəli*** tayfasında 2.456 vergi mükəlləfiyyətli kişi və 720 subay şəxs qeydə alınmışdır.[15]

XVI əsrdə tərtib edilmiş təhrir dəftərlərində Osmanlı dövlətinin ərazisində Gökçə məzrəəsi (Kosun), Gökçə Öyük kəndi (Kütahya), Gökçəli camaatı, Gökçə əfşarı camaatı, Gökçə ağıl məzrəəsi (Kayseri, Koçhisar, Turqut), Gökçə Əlilər və Gökçə Əlili kəndləri (Turqut), Gökçə Əlili məhəlləsi (Konya), Gökçə Asma kəndi (İslamlu), Gökçə Bayır (Sivas), Gökçə Bələn (Maraş), Gökçə və Gökçə çam camaatları, Gökçə çam kəndi (Budaközü), Gögçə Təpə camaatı, Gökçə Təpə kəndi (İnsuyu, Konya Bayburt, Urfa Kozan), Gökçə dərə (Koçhisar), Gökçə Dündarlı camaatı, Gökçə Eymir kəndi (Karaçam), Gökçə Eymur məzrəəsi (Karataş, Kayseri), Gökçə Germani kəndi (Kureyşözü), Gökçə Hacı Kətxuda camaatı, Gökçə kəndləri (Adala, Afşar, Kayseri, Kestler, Mahmudlar, Manisa, Menemen, Palamud, Sivas, Sivrihisar), Gökçə qanlı camaatı, Gökçədağ (Bayındır, Hisni-mansur, Karsı-maraş, Maraş,

[14] Шопен И.Исторический памятник состояние Армянской области в эпоху ее присоединение к Российской Империи. СПб, 1852, стр.249; 395; Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: 2002, s.211.

Zamantı), Gökçətəpə (Maraş), Gökçəköy məzrəəsi, Gökçələr camaatı, Gökçələr kəndi, Gökçəli qışlağı və s. kimi kənd, məzrəə, camaat adları qeydə alınmışdır.[16]

Göytürk xaqanlığı (552-744) ilk türk imperatorluğu sayılır. Buradakı "türk" sözünün tarixdə ilk dəfə işədildiyi hesab edilir. "Göy" sözünün işlədilməsi necə meydana çıxıb?

Digər xalqlarda müxtəlif cür-səma, asiman, fəza, nebo və s. yalnız türklərdə onun rənginin adı ilə "göy" adlandırılmış və ona xüsusi məna verilmişdir. "Göy" sözü qədim türklərdə həm də fövqəltəbii qüvvə, Tanrı-Allah sayılmış və sakral məna ifadə etmiş, ***göytürk*** isə türkün Göyə məxsus olduğunu, Göy-Tanrı  mənşəli olduğunu, onun Yer üzünə hakim olmağa haqqı və qüdrəti çatdığını ifadə etmişdir. Altay dağlarından Qara dənizə qədər uzanan Göytürk imperatorluğu həmin dövrdə dünyanın ən böyük dövləti idi.

Qədim türklərdə Tanrı və Göy sözləri sinonim idi. Onlar hesab edirdilər ki, bizim kainatı 17 ilah idarə edir: Yersub, Umay, Erlik (Ərlik), Torpaq, Su, Od, Günəş, Ay, Ulduzlar, Hava, Bulud, Külək, Tufan, İldırım və Şimşək, Yağış, Göy qurşağı. Tanrı (Göy) isə baş Allah idi. Onların təsəvvürlərinə görə Yer üzərində mövcud olan bütün şeylər Tanrının (Göyün)  hakimiyyəti altındadır. Məhz Tanrı kainat səmasında baş Allah olmaqla, istər bütöv xalqların, istərsə də hökmdarların-xaqanların, xanların taleyini müəyyən edir. Orxan daş kitabələrində Göy Allahı Tanrının rolu

---

[15] Halaçoğlu Y.., s.XXXIII.
[16] Halaçoğlu Y.., VI c, s.2616.

müəyyənləşdirilmişdir. Onu Bilgə xaqan belə ifadə edir: “İnsan oğulları doğulmuşlar ki, Göylərin müəyyən etdiyi vaxtda ölsünlər”.

Tanrının siması heç kimə aydın deyil. Yer və Tanrı (Göylərin Ruhu) bir varlığın iki forması kimi başa düşülür və bir-biri ilə mübarizə aparmayaraq bir-birlərini tamamlayırlar. Tanrı xaqanlara (xanlara) müdriklilik və hakimiyyət bəxş edir. Bilgə xaqan bu barədə deyir: “Atam öləndən sonra türk Tanrısının (Göyün) və müqəddəs türk Yersubunun (Yer və Su) iradəsi ilə mən xaqan oldum. Xanlara dövlət bəxş edən Tanrı (Göy) məni xaqan etdi ki, türk xalqının adı və şöhrəti itib getməsin”.

Xaqan taxta çıxdıqdan sonra dövlətdə həm də baş kahin olurdu. Ona Göylərin oğlu kimi sitayiş edirdilər.[17]

Qədim türklərin Böyük Gök Tanrıya qurbanvermə mərasimləri əsrləri aşaraq indiyə qədər də Altay xalqlarında qalmışdır.

Türklər VII-VIII əsrlərdə boylara və uruğlara bölünmüşdür.[18]

“Göytürk” sözündəki “göy” tərkibi türklərə məxsus ərazilərdə müxtəlif şəkildə öz davamını da tapmışdır. Türkmən alimi S.Ataniyazov gökçə, çakır və əfşarları ***göklən*** boyunun dodurğa uruğuna aid edir.[19] Müəllif göklən boyu haqqında bildirir ki, XI əsrdə Sırdərya boylarından Balkan dağlarına köçən və ***“gök/göklü”*** adlanan türkmən boyunun

[17] Bax: İmanov H., Əhədov A., Əhmədli N. Etnik dinlər və dünya dinləri. Bakı, 2003.

[18] Ataniyazov S. Türkmen boylarının geçmişi, yayılışı, bugünkü durumu ve geleceği. // Bilig-10/Yaz”99, s.2.

nəsilləri olan göklənlər hazırda əsasən Türkmənistanın Qarrıqala rayonunda və Qızılarbat rayonunun Çukur və Cecis obalarında yaşayırlar. Bu boya mənsub olanların bir qismi isə Azərbaycan və Türkiyədə, böyük hissəsi isə İran Türkmənsəhrasında yaşayırlar.[20]

Malazgird döyüşü (1071) oğuz türkmənlərin kütləvi şəkildə Anadolu torpaqlarına köçməsinin yolunu açdı. Xəzər dənizinin cənubundan, Xorasan, İran və Azərbaycandan köçməklə Anadoluya gedən oğuz-tükmən boylarına mənsub olanların bir qismi keçdikləri ərazilərdə məskunlaşmaqla öz boy, tayfa, qəbilə, camaat, oba və oymaq adlarını da yeni məskunlaşdıqları ərazilərə vermişdilər ki, Göyçə adı da fikrimizcə onların arasındadır.

Şəkidə, Naxçıvanda, Türkiyədə və türklərin yaşadığı digər bölgələrdə mövcud olan və adını eyniadlı türk tayfasından götürmüş “Göynük” kəndi haqqında da eyni sözləri demək olar.

1590-cı il tarixli İrəvan vilayətinin müfəssəl dəftərində Zebil nahiyəsində başqa adı Suaçır olan və ildə 8.000 ağça vergi ödəyən Göyçə adında kənd[21], İrəvan əyalətinin 1727-cı il tarixli icmal dəftərində isə həmin əyalətin Şürəyel nahiyəsində ildə 3.000 ağça vegi ödəyən Göyçə adında başqa bir kənd qeydə alınmışdır.[22] İrəvan əyalətinin 1727-ci il tarixli müfəssəl dəftərində həmin kənddə 8 ailə

[19] Orada, s.17.

[20] Orada, s.13.

[21] 1590-cı il tarixli İrəvan vilayətinin müfəssəl dəftəri (Transliterasiya və tərcümə edənlər H.Qaramanlı və M.A.İslamoğlu). Bakı, 2023, s.508.

[22] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma, tərcümə. qeyd və əlavələrin müəllifləri Z.Bünyadov və H.Məmmədov (Qaramanlı)). Bakı: 1996, s.125.

yaşayırdı.[23] Müfəssəl dəftərdə Şürəyöl nahiyəsində başqa adı Aləmli olan "Molla Göyçə" adında kənd də vardır[24].

Göyçə nahiyəsi inzibati ərazi vahidi kimi ilk dəfə 1728-ci il tarixli icmal dəftərində rast gəlinir. İllik vergisi 578.770 ağça olan nahiyədə 43 kənd vardı.[25]

Fikrimizcə, "Göyçə" toponiminin mənşəyi Göytürk İmperatorluğu və göytürklərdən törəmiş ifadədir. Gözəl-gözəlçə, yetim-yetimçə, bağ-bağça, qazan-qazança, kitab-kitabça və s. sözlərində olduğu kimi, gökçə/göyçə sözü də sifətin azaltma dərəcəsi əsasında yaranmış tayfa adıdır. Aydındır ki, gökçə/göyçə tayfası göytürklərə aiddir.

"Azərbaycan toponimlərinin ensiklopedik lüğəti"ndə hazırda Ağstafa rayonunun Vurğun və Xətai inzibati ərazi vahidlərində yerləşən Göyçəli adında iki kənd haqqında məlumat verilir: "Gəncə-Qazax düzənliyində yerləşirlər. XIX əsrda bir qrup azərbaycanlı əhali erməni təcavüzü nəticəsində öz dədə-baba yurdları olan Göyçə mahalından köçməyə məcbur olmuşdu. Qazax mahalında məskunlaşan həmin əhali yeni yaşayış məntəqələrinə keçmiş yurdlarının adlarını vermişlər".[26]

Bu kiçik məlumatda ciddi səhvlərə yol verilmişdir. Əvvəla, ***Qazax mahalı*** adında inzibati-ərazi vahidi mövcud olmayıb. Müəlliflərin nəzərdə tutduğu ərazidə xronoloği ardıcıllıqla Qazax Sultanlığı, Qazax distansiyası, Qazax nahiyəsi, 1867-ci

---

[23] 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri (Transliterasiya, tərcümə, giriş, lüğət və göstəricilər t.ü.f.d., dos. F.Hüseyn). Bakı, 2021, s.749.

[24] Orada, s.704.

[25] İrəvan əyalətinin icmal dəftəri., s.55-56.

[26] Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. Bakı, 2007, I c., s.207.

ildə Qazax və Şəmşəddil nahiyələri əsasında yaradılan və sovet hakimiyyətinin dövrünə qədər mövcud olan Qazax qəzası, sovet hakimiyyətinin dövründə isə həmin qəzanın bir hissəsində yaradılan Qazax rayonu mövcuddur. İkincisi isə guya erməni təcavüzündən qaçan göyçəlilərin bu kəndləri yaratması da, təcavüz hadisəsinin və göyçəlilərin qaçması da saxta məlumat və göyçəlilərə atılan böhtandır.

Kitabın tərtibçiləri iddia edir ki, müəlliflərin öz tədqiqatları ilə yanaşı, Azərbaycanın bir çox görkəmli dilçi alimlərinin, türkoloqların, tarixçilərin, coğrafiyaşünasların, toponomistlərin, etnoqrafların əsərləri nəzərdən keçirilmiş, mövzu ilə bağlı müxtəlif lüğətlərə, toplulara, inzibati ərazi bölgülərinə müraciətlər olunmuş, müqayisələr aparılmışdır.[27] Halbuki iddianın əksinə olaraq, Ağstafa rayonunda mövcud olan "Göyçəli" toponimi haqqında ən azı tarixçilərin əsərlərinə müraciət edilməmişdir.

1595-ci il tarixli Gəncə-Qarabağ əyalətinin icmal dəftərində Gəncə livasının Xaçın nahiyəsində İshaq adlı şəxsin zeamətinə məxsus və ildə 2.000 ağça vergi verən ***Göyçəli Varvara***,[28] Axıstabad livasının Qaraağac qəzasında yaşayan, Hacılar tayfasının uluslarından olan və ildə 2.000 ağça vergi verən ***Göyçəli camaatları*** qeydə alınmışdır.[29] Əlimizdə yazılı mənbələr olmadığına görə adı çəkilən Göyçəli camaatlarının hansı dövrdə bu ərazidə məskunlaşdığı

[27] Orada, s.5.

[28] 1595-ci il tarixli Gəncə-Qarabağ əyalətinin icmal dəftəri (Ön söz, araşdırma, tərcümə, qeyd və şərhlər t.ü.f.d., dos. H.Qaramanlınındır). Bakı, 2022, s.221

[29] Orada, s.252.

haqqında dəqiq tarix söyləmək mümkün olmasa da, oğuz-türkmən tayfalarının XII-XIII əsrlərdə Orta Asiyadan Anadoluya köçü zamanı Göyçəli camaatının bu ərazilərdə məskunlaşdığını hesab etməliyik. Osmanlıların XVI əsrin sonlarında tərtib etdikləri təhrir dəftərlərində Göyçə adında qəza və nahiyə qeydə alınmayıb. Beləliklə, düşünmək olar ki, Göyçə adında inzibati ərazi 1590-1723-cü illər arasında, böyük ehtimalla Səfəvilər dövründə yaradılmışdır. Ərazinin adı aydındır ki, yuxarıda haqqında söhbət gedən Göyçəli və Göyçəli Varvara camaatlarının adından götürülmüşdür.

1727-ci ildə Osmanlı hökuməti tərəfindən tərtib edilmiş Gəncə - Qarabağ əyalətinin müfəssəl dəftərində həmin əyalətə daxil olan Xılxına livasının Həsənsu nahiyəsində Göyçəli adında kənd və əhalisi Göyçəli camaatından olan daha 7 kənd qeydə alınmışdır: Uğurlu kəndi, Molla kəndi, Məmmədqulu kəndi, Qaib kəndi, Vəlirza kəndi, Yəhyalı kəndi və Pirməhəmməd kəndi.[30]

Adı çəkilən Göyçəli kəndi sonralar Şəmşəddil sultanlığının, Şəmşəddil distansiyasının, Şəmşəddil nahiyəsinin, 1867-ci ildən isə yeni yaradılan Qazax qəzasının tərkibində olmuşdur. Sovet hakimiyyəti illərində Qazax qəzasının ərazisində Qazax və Tovuz rayonları yaradılarkən, Göyçəli kəndi Qazax rayonunun tərkibində qalmış, daha sonra isə yeni yaradılan Ağstafa rayonunun tərkibinə daxil edilmişdir. Şəmşəddil nahiyəsinin 1860-cı ildə tərtib edilmiş kameral təsvirinə görə, Göyçəli kəndi nahiyənin ən böyük

[30] Gəncə - Qarabağ əyalətinin müfəssəl dəftəri (Ön söz, tərcümə. qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı)). Bakı: 2000, s.224-228.

kəndi olmuşdur. 261 ailənin yaşadığı bu kənd Cağalı və Qırıqlı icmalarından ibarət idi.[31]

Sultan xaslarına daxil olan Həsənsuyu nahiyəsindəki Göyçəli kəndi 1732-ci il tarixli Gəncə-Qarabağ əyalətinin icmal dəftərində də qeydə alınmışdır.[32]

İrəvan əyalətinin 1831-ci il tarixli kameral təsvirində əyalətə daxil olan  Sürməli mahalında 9 ailənin yaşadığı Göyçəli kəndi qeydə alınmışdır. Kənd Qacarlar dövlətinə sadiq olan və rus işğalından sonra İrana getmiş Kəlam ağanın tiyulu olmuşdur[33] Hazırda həmin kənd Türkiyə Cümhuriyyətinin İğdır vilayətiin Qaraqoyunlu ilçəsinə daxildir.

Gökçə tayfasının hazırda Türkiyədə geniş yaşayış arealı mövcuddur. Məsələn, Tokat vilayətinin Niksar ilçəsində *Gökçəli* adında qəsəbə, Afyonkarahisar vilayətinin Dinar ilçəsində, Amasya vilayətinin Göynücək ilçəsində, Bayburt vilayətinin Mərkəz ilçəsində, Biləcik mahalının Bozüyük ilçəsində, Bingöl vilayətinin Adaklı ilçəsində, Sivas vilayətinin Yıldızeli ilçəsində *Gökçəli* adlı kəndlər, İstanbulun Çatalca ilçəsində, Qaziantepin Nizip ilçəsində, Qəhrəman Maraşın Andırın ilçəsində, Malatya vilayətinin Pötürge ilçəsində, Ordu vilayətinin Kumru ilçəsində, Samsun vilayətinin Çərşəmbə ilçəsində, Adana vilayətindəki Yürəyir ilçəsində *Gökçəli* adında məhəllələr vardır.

---

[31] Şəmşəddil nahiyəsinin kameral təsviri (Tərcümə, tərtib, ön söz və qeydlərin müəllifi N.Əhmədli). Bakı: 2019, s.107-125.

[32] Gəncə-Qarabağ əyalətinin icmal, timar ruznamçə və təhvil dəftərləri (Osmanlı türkcəsindən tərcümə və transliterasiya, ön söz, araşdırma mətnləri, qeyd və şərhlər t.ü.f.d., dos.H.Qaramanlınındır0. Bakı. 2023, s.94.

[33] İrəvan əyalətinin kameral təsviri. 1831-ci il. V c. (Tətcümə, tərtib, giriş mətni, qeyd və şərhlərin məllifi N.Əhmədli). Bakı, 2022, s.47-48.

İraqın Mosul şəhərində də "Gökçəli" məhəlləsi var. Həmin ərazilərin əsrlər boyu Osmanlı imperatorluğuna məxsus olduğunu nəzərə alsaq, bu fakt əlbəttə, təəccüb doğurmamalıdır. Hazırda da Gökçə tayfası Türkiyədən başqa, Mosul və Kərkük şəhərlərinin yaxınlığında yaşayır.

Türkiyənin bir çox yerlərində "Gökçə" və "Gökçəli" ilə yanaşı, *"Gökçələr"* kimi yer adlarına da rast gəlinir və bu sözün tayfa mənsubiyyətini ifadə etməsi şübhə doğurmur. Məsələn, Türkiyənin Adana vilayətinin Seyhan ilçəsində, Balıkəsir vilayətinin İvrindi ilçəsində, Biləcik vilyətinin Gölbazarı ilçəsində, Bursa vilayətinin Harmancıq ilçəsində, Dənizli vilayətinin Tavas ilçəsində, Manisa vilayətinin Akhisar ilçəsində, Muğla vilayətinin Milas ilçəsində, Sakarya vilayətinin Akyazı ilçəsində, Trabzon vilayətinin Düzköy ilçəsində, Kocaeli vilayətinin İzmit ilçəsində *"Gökçələr"* adlı məhəllələr, Çankırı vilayətinin Çerkeş ilçəsində, Gümüşxana vilayətinin Şiran ilçəsində, Kastamonu vilayətinin Cidə ilçəsində, Kütahya vilayətinin Altıntaş və Simav ilçələrində, Zonquldaq vilayətinin Çaycuma ilçəsində *"Gökçələr"* adlı kəndlər vardır.

Türkiyəli tədqiqatçı Bürhanəttin Akbaş Bozok türkmənlərinə aid etdiyi *Gökçəli* oymaqlarının geniş siyahısını verir:

**17.Gökçəli obaları** (Mersində Dəliçay, Mezitli dərəsi və Bolkar dağlarına qədər uzanan ərazidə yaşayırlar): 1.Əlixanlı; 2.Arşınlı; 3.Arzular; 4.Əsri(yak); 5.Baltalı; 6.Boloxlu; 7.Çimirli; 8.Çaylaq; 9.Çoğköylü; 10.Döyünlü; 11.Əskimustafalı; *12. Hacıgöyçəli;* 13.Həmzəbəyli; 14.Xurmacıqlı; 15.İğdır; 16.Kəlbürcü; 17.Qapmazlı; 18.Qarahəmzəli; 19.Kəsəroğlu; 20.Qocaoğlu; 21.Kiçikhacılı (Qarıncıq);

22.Mahmudfakifli; 23.Oğulbəyli; *24.Ordugöyçəli;* 25.Sapandərəli; 26.Sarıbəyli; 27.Sarıcaorxanlı; 28.Savcılı; 29.Süleymanlı; 30.Useli; 32.Yaqublu obaları. Məşhur türk tarixçisi F.Sümər də gökçələr haqqında maraqlı məlumat verir: "Tarsus bölgəsində yaşayan və XIV-XVI əsrlərdə varsaq adlanan türkmən icması boy adları ilə kusun, ulaş, quşdəmür, *gökçəlü* və əlvanlı kimi bir sıra təşəkküllərə ayrılmışdı"[34].

Türkiyə Cümhuriyyətində Konya, Tokat, Əskişəhər, Afyonkarahisar, Kayseri, Ankara və Sivas vilayətlərində əhalisi ancaq qaraçaylardan ibarət olan 12 kənd vardır. Bu kəndlərdən biri olan *Gökçə Yayla* kəndi Əskişəhər vilayətinin Xan ilçəsində yerləşir.

Gökçəli tayfasını oğuzların Üç Ox boyuna mənsub hesab edən Türkiyəli alim A.Gökbel yazır ki, Anadolunun Rumeli tərəfi də daxil olmaqla müxtəlif yerlərdə, xüsusilə XVI əsrdə *Gökçəli, Gökçələr və Gökçə* adlarını daşıyan kəndlərə də rast gəlinir.[35]

Müəllif XVI əsrdə olmaqla Maraş qəzası, Qara Hayıt nahiyəsində (1563) əhalisi 133 nəfər olan bir kənd, Elbistan qəzasına tabe olan Aynul-Arus nahiyəsində *Gökçə* kəndi və Zamantı qəzası, Pınarbaşı nahiyəsi sərhədlərində *Gökçəköy* adında məzrəələrin mövcud olduğuni bildirir.[36]

III Murad zamanında Qaraman kəndləri arasında 98 nəfər sakini olan *"Gökçə"* adında bir kəndə, 1965-ci ilin siyahıyaalmasına görə də Qaramanın bu günkü mərkəz kəndləri

---

[34] Sümər F.. Oğuzlar. Bakı: 1992, s.304.
[35] Gökbel A. Anadoludakı varsaq türkmənləri. Ankara: 2007, s.56..
[36] Orada, s.57.

arasında 37 evi və 202 sakini olan *"Gökçə"* adında bir kəndə də rast gəlirik"[37].

Türkiyədəki Amasya vilayətinin Göynücək ilçəsində yerləşən *Gökçəli* kəndi ilə bağlı maraqlı məlumat verilir. Deyilənə görə, Gökçəli adı kənddəki qədim qalanın komandanının adı ilə bağlıdır. Həmin komandanın adı Gökçə bəy imiş.

Bir sıra müəlliflər XVII əsrdə yaşadığı güman edilən böyük türk aşıq-şairi Qaracaoğlanın Varsaq yurdu Fekenin (Adana vilayəti) *Gökçə* kəndində doğulduğunu yazırlar[38].

Yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gələ bilərik ki, Göyçə mahalı öz adını Malazgird döyüşündən (1071) və Çingiz xanın istilasından (1221) sonra Orta Asiyadan köçərək təxminən XII-XIII əsrlərdə bu ərazilərdə məskunlaşmış *göyçə/gökçə* tayfasının adından almışdır.

Müxtəlif müharibələr, o cümlədən I Şah Abbasın 1604 - cü ildə İrəvan əyalətini (Çuxursəd bəylərbəyliyini) osmanlılardan geri alarkən həyata keçirdiyi "yandırılmış torpaq" taktikasının nəticəsində burada yaşayan gökçələr Osmanlı İmperatorluğuna köç etmiş, amma onların adı həmin ərazidə qalmaqda davam etmişdir.

Nadir şah 1735-ci ildə Çuxursəəd bəylərbəyliyini və onun tərkibinə daxil olan Göyçə və Dərəçiçək ərazisini Osmanlılardan geri aldıqdan sonra bu ərazi 79 il boş qalmış, 1814-cü ildə Cənubi Azərbaycanın Sulduz mahalından köçürülən qarapapaq türklərinin *borçalı/bosçalı* tayfasına mənsub əhali ilə məskunlaşdırılmışdır. Oğuz boylarına mənsub olan

[37] Orada, s.56-57.

[38] Sadettin Nüzhet Ergin. Karacaoğlan. Hayatı ve Şiirleri. İstanbul: 1965, s.17.

gökçəli/göyçəli tayfasından fərqli olaraq qarapapaqlar türklərin qıpçaq qoluna mənsubdurlar.

### *2.İnzibati-ərazi bölgüsü*

Səfəvilər dövlətinin dövründə sonrakı Göyçə və Dərəçiçək mahallarının ərazisi Çuxursəəd bəylərbəyliyinin tərkibində olmuşdur. Nadir şah inzibati-ərazi islahatları apararaq Çuxursəəd, Gəncə-Qarabağ, Şirvan və Təbriz bəylərbəyliklərinin daxil olduğu Azərbaycan vilayətini yaradanda bu mahallar da həmin vilayətin tərkibində idi.

Osmanlı dövləti XVI əsrin sonu və XVIII əsrin əvvəllərində bu əraziləri işğal etdikdən sonra iki dəfə-1590-1593-cü və 1727-1728- ci illərdə *"təhrir dəftəri"* tərtib etdirilmişdir.

1590-cı və 1727-ci illərdə müfəssəl dəftərlər, 1593-cü və 1728-ci illərdə isə icmal dəftərləri tərtib edilmişdir. Həmin təhrir dəftərlərində bölgənin inzibati-ərazi qurluşu haqqında da məlumat verilmişdir.

1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"nə görə İrəvan əyaləti aşağıdakı nahiyələrdən ibarət idi: İrəvan, Karbi, Naxçıvan, Məvaziyi - Xatun, Mülki-Arslan, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Ağcaqala, Karni, Vedi, Abaran, Şərəbxana, Talin, Ərmus, Abnak, Aralıq, Azadcıran, Şorlut, Dərənürgüt, Zar, Zebil, Əlincə, Sisyan.[39]

Bu nahiyələrdən ikisi - Zar və Zebil nahiyələri Göyçə və Dərəçiçək mahallarının ərazisini əhatə edirdi. Həmin nahiyələrdəki kəndlər isə bunlar idi.

---

[39] İrəvan əyalətinin icmal dəftəri ..., s.143.

*Zar nahiyəsi:* Leyv, Zod, Qılıçlı Məzrəsi, Qarasaqqal, Pirus, Yellidərə, Qızılca, Nəhadək, Daşkənd, Damğa, Qarabulaq, Zar, Çərikni(?), Dəstək, Kəlavəçər, Ağkilsə, Ayrıman(?), Günlü, Barrnışa (başqa adı Qaragözdür), Çiçəkli, Bintə(?), Salaməleyk, Canan (başqa adı Cahanşahdır), Xüregid, Yenicəyi-Polad, Ağcakənd kəndləri.[40]

*Zebil nahiyəsi:* Çərəkdar, Uşaqcıqlar, Həmzə, Toz, Saray (başqa adı Əminkənddir), Altunküşnü (başqa adı Məlikkənddir), Baş Zebil,Yenicə, Xordegir, Nahiyəyi-Məşhəd, Çivangərəkməz (başqa adı Qaşqayoldur), Əstük, *Göyçə* (başqa adı Suaçırdır), Ərkli, Şişlik, Qalagöy, Dəvəçuxur, Palıdlıq, Armudluq, Vənktağ, Başqa Çərikni(?), Martnos, Muz(?), Mərcimək kəndləri; Durna qoruğu, Muncuqlu, Orduçay, Yürəkir, Əyridərə, Qaraxaç, Gəlinqaya, Sərçəli adambasar, Qorxmaz gədiyi, Keçi beli, Dikdaş, Ağyataq, Qundaq, Səfərçi, Qaragöl, Qanlıca, Həmzəçəmən, Dovşanlı yaylaqları[41].

Zar nahiyəsindəki Zod, Qarasaqqal, Yellidərə, Qızılca, Daşkənd, Zar, Ağkilsə, Zebil nahiyəsindən isə Baş Zebil, Göyçə, Şişlik kəndlərinin adlarına Göyçə mahalının sonrakı dövrlərində də rast gəlirik. Bəzi kəndlərin adı olduğu kimi, bəziləri isə müəyyən dəyişikliklərə uğrayaraq öz varlığını davam etdirmişdir. Məsələn, Zar nahiyəsindəki Yellidərə fikrimizcə Yellicə, Zar və Zebil kəndləri Zarzebil, Şişlik kəndi isə Şişqaya adını almışdır.

Bu sənəddə İrəvan nahiyəsində başqa bir Zar kəndinə, ən maraqlısı isə ***Göyçəbəyli*** adında kəndə rast gəlinir.

---

[40] Orada, s.143.
[41] Orada, s.144.

“İrəvan əyalətinin icmal dəftəri (1728)”ndə bu əyalətin İrəvan, Naxçıvan və Şürəgəl livalarından ibarət olduğunu öyrənirik. İrəvan livasına 15 nahiyə daxil idi ki, onlardan ikisi-Göyçə və Məzrə nahiyələri Göyçə mahalına aid idi: Qırxbulaq, Karbi, Maku, Xınzirək, Karni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Dərələyəz (1727-ci ilə aid olan “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə bu nahiyə Naxçıvan sancağına aid edilmişdir), Məzrə, Sürməli, İğdır, Aralıq və Şərur nahiyələri.

***GÖYÇƏ nahiyəsinə bu kəndlər daxil idi:***

Horaduz kəndi, Camalgöl kəndi, Qaradəli kəndi, Böyük Ördək kəndi, Kiçik Ördək kəndi, Göyçə gölün sahilində yerləşən Şahaqçı kəndi, Göyçə gölün sahilində yerləşən Vardenis kəndi, Göyçə dağında olan Kəməndbulaq kəndi, Göyçə dağında olan Buğdayitəpə kəndi, Delican kəndi, Gör kəndi, Qalacıq kəndi, Qaraörən kəndi, Ağkilsə kəndi, Qızılörən kəndi. Kəndin başqa adı Öyüdoyratdır, Göyçə gölün sahilində yerləşən Xaç kəndi, Kənizək kəndi, Zar kəndi, Əlkovas kəndi, Kolanı kəndi, Bədkal (?) kəndi, Dəliqardaş kəndi, Azadkaha kəndi, Keşişkənd, Buzxana kəndi, Əmirkənd, Qarakilsə kəndi, Bədəli kəndi, Altuntaxt (?) kəndi, Altuntaxt (?) kəndi tərəfdə yerləşən Ağbulaq kəndi, Görüçüörən kəndi, Görüçüörən kəndi tərəfdə yerləşən Qızıldaş kəndi, Əmiryar kəndi, Digər Ağkilsə kəndi, Gölkənd, Böyük Dayə kəndi, Kiçik Dayə kəndi. Dilənçi kəndi tərəfdə yerləşən Canqurtaran kəndi, Bədəlli kəndi, Dəlikdaş kəndi, İynədir kəndi, Dilənçi kəndi.

***MƏZRƏ nahiyəsinin kəndləri:***

Böyük Yenicə kəndi, Virs kəndi. Kəndin başqa adı Dərbənddir, Qazanlıqdərə kəndi, Canqur kəndi və Əskicanqur məzrə`əsi, Adıyaman kəndi, Uzunxaç kəndi, Kiçik Yenicə

kəndi, Salaməleyk kəndi, Göyrənis kəndi, Siyaqud kəndi, Vanevan kəndi, Qızıltəpə kəndi, Qaraköynək kəndi, Karçan kəndi, Qızılca kəndi, Ağcakelkid kəndi, Vəlikənd. Qazançı kəndi, Döyürək kəndi, Nahdam kəndi, Yalaqlı kəndi, İrəkənd, İlanlı kəndi, Keşişkənd, Kediqarabulaq kəndi, Qızılkilsə kəndi, Söyüdlü kəndi, Qırxbulaq kəndi, Basarkeçər kəndi, Ərküş kəndi tərəfdə olan digər Keşişkənd, Məraq kəndi tərəfdə olan Solaq kəndi, Ağcaqala kəndi tərəfdə olan Quşçu kəndi, Həsənkənd tərəfdə olan Dəli Ağacan kəndi, Xatunkənd, Ağcaqala kəndi, Məraq kəndi, Məzrə`ə kəndi, Qaraçubuq kəndi, Zod kəndi, Göldək kəndi, Çətən kəndi, Ərdanuc kəndi, Əyricə kəndi tərəfdə olan Şahnəzər kəndi, Əyricə kəndi.

Göyçə nahiyəsinə daxil olan Vardenis, Buğdayitətə (Buğdatəpə), Ağkilsə, Zar, Kolanı, Qarakilsə, Altuntaxt, Ağbulaq, Digər Ağkilsə və Göl kəndlərini, Məzrə nahiyəsinə daxil olan Adıyaman, Qızılca, Qırxbulaq, Basarkeçər, Məzrə, Zod və Ərdanuc (1831-ci ilin kameral təsvirindəki Ardanış kəndi çox güman ki, həmin kənddir), eləcə də adı ilk dəfə rast gəlsə də, maraq doğuran Dərbənd kəndini göstərə bilərik.

1590-cı ildə tərtib edilmiş İrəvan əyalətinin Dərəçiçək adında inzibati-ərazi vahidi olmasa da, 1727-ci ilə aid müfəssəl dəftərdə Dərəçiçək nahiyəsi mövcud olmuşdur. Həmin nahiyəyə aşağıdakı kəndlər daxil idi:

***DƏRƏÇİÇƏK nahiyəsinin kəndləri:***

Dərəçiçək kəndi, Kərinək məzrəsi, Cəlladlı kəndi, Şəhriz kəndi, *Çubuqlu kəndi,* Varzinək məzrəsi, Söyüdlü kəndi, Axtu kəndi, Avazənik kəndi, Solak kəndi, Gümürlü kəndi, Mərədərəsi kəndi, Gprdük kəndi, Səragiğ kəndi, Qaramurad kəndi, Günük məzrəsi, *Toxluca kəndi,* Söyüdlü məzrəəsi, Varzor

kəndi, Gemazor kəndi, Yenicə kəndi, Ulunzor kəndi, Qarakeşiş kəndi, Hərbənd kəndi, Keçəriz kəndi, Kərniki kəndi, Armudlu məzrəsi, Canıbəy kəndi, Axpara kəndi, Corcor kəndi, Qızılkilsə kəndi, Qoqudus kəndi, Qaxsı kəndi, Ərgəvil kəndi. Fərrux kəndi, Qaramahmud kəndi, Gördək kəndi, Dağqışlaq məzrəəsi, Şaharbuz kəndi, Qaracalar məzrəəsi, *Təkəli kəndi,* Alaşıq və ya palçıqlı kəndi, şaban qışlağı, Qarakilsə kəndi, Həmzəgöl kəndi, Andon kəndi, Eşşəkquduran kəndi, Təknəli kəndi, Soyuqbulaq kəndi, *Ağbulaq kəndi.*[42]

Nadir şahın 1747-ci ildə sui-qəsd nəticəsində öldürülməsindən sonra meydana çıxan xanlıqlardan biri də 15 mahaldan ibarət İrəvan xanlığı idi. Göyçə və Dərəçiçək mahalları da onların arasında idi. Türkmənçay müqaviləsindən (1828) az sonra, 1828-ci il martın 21-də imperator I Nikolayın fərmanı ilə yeni ilhaq edilən İrəvan və Naxçıvan xanlıqları ləğv edilərək onların yerində ***Erməni vilayəti*** və onun tərkibində İrəvan və Naxçıvan əyalətləri yaradıldı.

Rusiya hökumətinin 10 aprel 1840-cı il tarixli qanunu ilə Erməni vilayəti ləğv edilərək, onun ərazisi Cənubi Qafqazda yeni yaradılan Gürcüstan-İmeretiya quberniyasına daxil edilsə də, çox keçmədən, 1849-cu il iyun ayının 9-da I Nikolayın fərmanı ilə 5 qəzadan ibarət İrəvan quberniyası yaradıldı. Bu qəzalardan biri də Göyçə gölü hövzəsindəki əraziləri əhatə edən *Yeni Bəyazid* qəzası idi.

Beləliklə, XIX əsrin 30-cu illərinə qədər əhalisinin 98%-ni müsəlman türklərin təşkil etdiyi Göyçə mahalının etnik tərkibi yeni rus idarəçilərin iradəsi ilə, xarici dövlət-

[42] İrəvan əyalətinin icmal dəftəri ... s.53; 115-119.

lərdən buraya köçürdükləri ermənilərlə onların xeyrinə dəyişdirildi.

Rusiyadakı 1917-ci il Oktyabr silahlı çevrilişi nəticəsində Cənubi Qafqazda siyasi dəyişikliklər baş vermiş və burada 3 yeni dövlət yaranmışdı. Göyçə mahalı və Göyçə gölü Azərbaycan Cümhuriyyəti ilə Ermənistan Respublikası arasında mövcud olan sərhəddin bir hissəsini təşkil edirdi. Gölün şimal-şərq tərəfindəki ərazi ***"Göyçə dairəsi"*** inzibati statusu ilə Azərbaycana məxsus idi.

Azərbaycan Cümhuriyyəti parlamentinin qəbul etdiyi son qanun Göyçə mahalı ilə bağlı olmuşdur. 1920-ci il aprel ayının 22-də Şamxor qəzasının yaradılması barədə 5 bənddən ibarət xüsusi qanun qəbul edildi. Şamxor qəzası Gəncə qəzasının qərb hissəsində və keçmiş İrəvan quberniyasının *Yeni Bəyazid* qəzasının ona bitişik hissəsində yaradılırdı. Yəni tarixi Göyçə mahalının şimal-şərq hissəsi - Cil, Məzrə, Zod, Basarkeçər, Şişqaya, Sarıyaqub və başqa kəndlər də buraya aid idi. Lakin 5 gün sonra sovet Rusiyasının hərbi müdaxiləsi ilə baş vermiş aprel çevrilişi (1920) həmin qanunun tətbiqinə imkan vermədi[43].

Bolşevik Rusiyası Göyçə dairəsini Azərbaycandan qoparıb Ermənistana verdi və keçmiş Göyçə mahalının yerində Hrazdan, Sevan, Martuni, Kamo, Vardenis (Basarkeçər) və Krasnoselo rayonları yaradıldı ki, onlardan yalnız sonuncu 2 rayonda türklər yenə də sayca əksəriyyət təşkil edirdilər.

---

[43] Əhmədova F. Cümhuriyyət parlamentinin sonuncu qanunu: gerçəkləşməyən qanunda itiriləcək Azərbaycan torpaqlarına sahiblik təsbit olunmuşdu.//Füyuzat jurnalı, 2009, № 5 (49), s.63-64.

Sovet hakimiyyəti illərində də Çöyçədə həyata keçirilən erməni yönlü siyasət, etnik təmizləmə prosesi davam etdirildi, Qərbi Azərbaycanın digər bölgələrində olduğu kimi Göyçədəki yer-yurd adları erməniləşdirildi, SSRİ-nin sonuncu rəhbəri M.Qorbaçovun dəstəyi ilə ermənilərin Dağlıq Qarabağ ətrafında başladıqları münaqişənin nəticəsi olaraq 1988-ci ildə göyçəlilər də öz yer-yurdlarından didərgin düşdülər.

### *3.Əhali və demoqrafiya*

Yeni Bəyzid qəzasının 1873-cü il tarixli 4 saxlama vahidindən ibarət (F.93, s.1, s.v. 20; 21; 22 və 23) kameral təsviri Ermənistan Milli Arxivində saxlanılır. Əhalidən vergi toplamaq üçün tətbiq edilən həmin kameral təsvir qəza rəisi Ostaşov tərəfindən tərtib edilmiş və imzalanmışdır.

1873-cü il tarixli kameral təsvirə görə Yeni Bəyazid qəzasında 132 kənd və 1 şəhər (Yeni Bəyazid şəhəri) qeydə alınmışdır. Bu kəndlərin 67-də yalnız tatarlar (Azərbaycan türkləri – N.Ə.), 52-də ermənilər, 8-də ruslar, 1-də yunanlar, 4-də isə türklərlə ermənilər qarışıq yaşayırdılar (Arzakan, Bjni, Göykilsə və Zar kəndləri). 798 ailənin yaşadığı Yeni Bəyazid şəhərinin əhalisi erməni idi. Ruslar Aleksandrovka (25 ailə), Aşağı Axtı (42 ailə), Yelenovka (173 ailə), Konstantinovka (31 ailə), Nadejdino (42 ailə), Novonikolayevka (25 ailə), Slisnovka (42 ailə), Suxofontan (23 ailə), yunan əhali Novomixaylovka (19 ailə) kəndində yaşayırdılar.

Kameral təsvirə görə qəzanın kəndlərində 8.497 ailə, 40.096 kişi, 38.875 qadın, cəmi 75.971 nəfər, Yeni Bəyazid şəhərində 798 ailə, 2.770 kişi, 2.660 qadın, cəmi 5.430 nəfər qeydə alınmışdır.

Beləliklə, 1873-cü ildə Yeni Bəyazid qəzasında 9.295 ailə, 42.886 kişi, 38.537 qadın, cəmi 81.401 nəfər yaşayır və hər 100 kişiyə 90 qadın düşürdü. Tatarlarda bu rəqəm 84, ermənilərdə 92, ruslarda 99, yunanlarda isə 81 idi.

Qəza əhalisinin 93,33 faizi (75.971 nəfər) kəndlərdə, 6,67 faizi isə (5.430 nəfər) şəhərdə yaşayırdı.

189 ailənin yaşadığı Gözəldərə (1.903 nəfər), 171 ailənin yaşadığı Dəliqardaş (1.714 nəfər), 177 ailənin yaşadığı Randamal (1.525 nəfər) qəzanın ən böyük, 8 ailənin yaşadığı Çobangərəkməz (27 nəfər), 11 ailənin yaşadığı Qabaqlı (103 nəfər) və Soyuqbulaq (72 nəfər) ən kiçik kəndləri idi.

**Cədvəl 1.**
**YENİ BƏYAZİD QƏZASININ ƏHALİSİ. 1873-cü il**

| Etnik mənsub. | Ailə | Kişi | Qadın | Cəmi | %-lə |
|---|---|---|---|---|---|
| tatar | 2.684 | 12.688 | 10.673 | 23.361 | 28,7 |
| erməni | 6.189 | 2.864 | 26.572 | 44.436 | 68,1 |
| rus | 403 | 1.261 | 1.247 | 2.508 | 3,08 |
| yunan | 19 | 53 | 43 | 96 | 0,012 |
| cəmi | 9.295 | 42.886 | 38.537 | 81.401 | 100 |

***Mənbə:*** Yeni Bəyazid qəzasının 1873-cü il tarixli kameral təsviri. Erm. Milli Arxivi, F.93, s.1, s.v.: 20, 21, 22, 23.

Yeni Bəyazid qəzasında hər kəndə orta hesabla 64 ailə və 573 nəfər düşürdü. Tatarlarda (Azərbaycan türklərində) bu rəqəm 40 ailə və 349 nəfər, ermənilərdə 104 ailə və 962 nəfər,

ruslarda 50 ailə və 313 nəfər idi. Yeganə yunan kəndi Novomixaylovkada 19 ailə və 96 nəfər yaşayırdı.

Tatarlarda (Azərbaycan türklərində) hər ailəyə 8,7 nəfər, ermənilərdə 9,3, ruslarda 6,2, yunanlarda isə 5 nəfər düşürdü.

Yeni Bəyazid qəzasında erməni əhalinin say üstünlüyü Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrindən sonra İrandan və Türkiyədən ermənilərin Göyçə və Dərəçiçək mahallarına köçürülməsi ilə bağlı idi.

Rusiya işğalından sonra Göyçə mahalında 999 yerli müsəlman və 15 yerli erməni ailəsi qeydə alınmışdı. İşğaldan sonra 800 Qarapapaq ailəsinin başçıları Nağı xanla İrana getdiyini nəzərə alsaq, müharibə ərəfəsində Göyçə mahalında ən azı 1.800 müsəlman ailəsinin yaşadığını qəbul etməliyik. Vergilərdən azad edilməsənin əvəzində Göyçə qarapapaqlarının müharibə zamanı 1.000 süvari döyüşçü çıxarmaq öhdəliyi də bu ehtimalı təsdiqləyir.

1829-cu il rus-türk müharibəsindən sonra Rusiya işğal etdiyi Bəyazid paşalığından 1.485 erməni ailəsini Göyçə mahalına köçürüb onun cənubunda, az bir qismini də qərbində yerləşdirdi.[44]

II Rusiya-Qacar müharibəsindən (1826-1828) əvvəl Dərəçiçək mahalında 1.000 qarapapaq ailəsi yaşayır və vergilərdən azad edilmələrinin əvəzində müharibə zamanı döyüşə 600 atlı döyüşçü çıxarmalı idilər.[45] Müharibədən sonra onların əksəriyyəti mahalı tərk etdiyinə görə, burada cəmi 231 türk ailəsi qalmışdı ki, onun da 134-ü qarapaq idi. Qalanları İrana getmişdi.[46]

---

[44] Шопен И. Исторический памятник ..., стр.601-602.
[45] Erm.Milli Arxivi,. F.90, s.1, s.v.79.
[46] Erm.Milli Arxivi,. F.90, s.1, s.v.79..

Göyçə və Dərəçiçək mahalları sonradan Erməni vilayətinin ərazisində yaradılan İrəvan quberniyasının tərkibində Yeni Bəyazid qəzasına daxil edilmişdir. Qəza mərkəzi olan Kəvərin adını da 1850-ci ildə dəyişib Yeni Bəyazid (Novobəyazid) qoymuşdular[47]. Bu ad Türkiyədən gətirilən ermənilərin Bəyazid paşalığından olmaları ilə bağlı idi. 1959-cu ildə həmin yaşayış məntəqəsi Kamo adlandırılmışdır[48].

Yuxarıdakı cədvəl rus işğalçılarının 45 il ərzində əhalinin etnik tərkibini ermənilərin xeyrinə nə cür dəyişdirdiyini göstərir. Göründüyü kimi 1873-cü ildə tatarlar Yeni Bəyazid qəzasında əhalinin cəmi 28,7 %-ni təşkil edirdilər. Halbuki, 1831-ci ilin kameral təsvirinə görə Göyçə mahalında 5.607 nəfər müsəlman, 90 nəfər yerli erməni, Dərəçiçək mahalında isə 1.300 nəfər müsəlman, 552 nəfər yerli erməni yaşayır və hər iki mahal əhalisinin cəminə görə türklər əhalinin 91,5, ermənilər isə cəmi 8,5 %-ni təşkil edirdilər[49]. Türkmənçay müqaviləsindən (1828) sonra Dərəçiçək mahalına İrandan 575 ailə, 3.535 nəfər, Ədirnə müqaviləsindən (1829) sonra Türkiyədən 539 ailə, 3.263 nəfər, Göyçə mahalına isə 1.485 ailə, 8.557 erməni köçürülmüşdü.[50] Beləliklə, hər iki mahalın ümumi əhalisi üzrə türklərin sayı 91,5 %-dən 28,7 %-ə düşmüşdü.

Ermənilərin Yeni Bəyazid qəzasına köçürülməsi 1877-ci ildə, rus-türk müharibəsindən sonra da davam etmişdir.[51]

---

[47] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: 2010, s.153.
[48] Orada, s.157.
[49] Шопен И. Исторический памятник ..., стр.595-601.
[50] Orada, s.595-602.
[51] Парвицкий А.В. Экономический быть государственных крестьян юго-западной части Новобаязетского уезда, Эриванской губернии.//-

Kürdlər Yeni Bəyazid qəzasına 1883-cü ildə Eçmiədzin qəzasından gəlmiş, onlarıdan 25 ailə Yanıqpəyə kəndində, 1 ailə isə Başkənd kəndində məskunlaşmışdılar.[52]

Yeni Bəyazid qəzasında yaşayan türklərdən (tatar) 53 ailə sünni məzhəbinə, qalanları isə şiə məzhəbinə mənsub idi.[53]

Yeni Bəyzid qəzasının 1873-cü il tarixli kameral təsvirində Göyçə ədəbi mühitinin məşhur simaları da yer alınmışdır. Məlum olur ki, Aşıq Allahverdi-Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Şair Məmmədhüseyn, Aşıq Musa haqqında indiyə qədər bizə təqdim edilən məlumatlar yanlış olmuşdur. Məsələn, Aşıq Alı 1801-ci ildə Göyçə mahalının Qızılvənk kəndində deyil, 1835-ci ildə həmin mahalın Şişqaya kəndində doğulmuş və onun ailəsi Qızılvənkə sonradan köçmüşdür. 1842-ci ilin kameral təsvirində əsil adı Almədət olan Aşıq Alının ailəsi budur:

"İRƏVAN QƏZASI GÖYÇƏ NAHİYƏSİNİN
KAMERAL TƏSVİRİ. 1842-ci il.

**№ 49. ŞİŞQAYA kəndi**

*Ayrımlı tayfası.*

Müsəlman dininin şiə məzhəbinə mənsubdurlar, köçəri həyat tərzi sürürlər.

**10.Mirzə Ovçu oğlu** 41 y; oğlu Almədət 7 y"[54].

---

Материалы для изучение экономического быта государственных кресстьян Закавказского края. Тифлис: 1886, Т.1, стр.319.

[52] Orada.

[53] Парвицкий А.В. Экономический бытъ государственных крестьян северо-восточной части Новобаязетского уезда, Эриванской губернии.//Материалы для изучение экономического быта государственных крестьян Закавказского края. Тифлис: 1886, Т.4, стр.8.

Kameral təsvirdən məlum olur ki, Aşıq Alı 1835-ci ildə Şişqaya kəndində doğulmuşdur.

Novobəyazid qəzasının 1873 –cü ilə aid kameral təsvirində Aşıq Alının ailəsi artıq Qızılvənk kəndində yaşayırdı:

YENİ BƏYAZİD QƏZASININ KAMERAL TƏSVİRİ. 1873-cü il.

**QIZILVƏNK kəndi**.

**6.7.Mirzə Ovçu oğlu** 64 y;

*oğlanları:* Almədət 39 y; onun oğlanları: Abdulla 13 y; Məhəmməd 6 y; Hüseyn 3 y;

Abbas 29 y (6/5).

Novobəyazid qəzasının 1852-ci iə aid kameral təsvirində bu ailənin 1856-cı ildə Qızılvənk kəndinə köçdüyü haqqında qeyd vardır.[55]

"GÖYÇƏ MAHALININ

KAMERAL TƏSVİRİ. 1831-ci il.

**№ 6. QIZILCIQ VƏ YA ABUL kəndi**

*Qarapapaq tayfası*

**19.Həsən Əli oğlu** 50 y; onun arvadı; dörd oğlu var: Əli 20 y; Məmmədhüseyn 15 y; Novruz 10 y; Qurban 7 y"[56].

Buradakı 15 yaşlı Məmmədhüseyn Şair Məmmədhüseyn kimi tanıdığımız şəxsdir və indiyə qədər yazılıdığı kimi 1801-ci ildə Daşkənd kəndində deyil, 1816-cı ildə Qızılcıq kəndində doğulmuşdur.

---

[54] Erm.Milli Arxivi, F.93, s.1. s.v.79.
[55] Erm.Milli Arxivi, F.267, s.1, s.v.7
[56] Erm.Milli Arxivi, F.90, s.1,s.v.88.

Şair Məmmədhüseyn ailəsi əvvəlcə həmin mahalın Qanlı Allahverdi, 1856-cı ildə isə Daşkənd kəndinə köçmüşdür.

1856-cı ildə Göyçə mahalında xeyli insan ölümləri və köçlər baş verdiyinə görə, ehtimal etmək olar ki, həmin vaxt mahalda epidemiya yayılmış və bir çox ailələr epidemiyanın olmadığı başqa kəndlərə köçmüşdür. Şair Məmmədhüseynin ailəsinin Daşkəndə, Aşıq Alının ailəsinin isə Qızılvənk kəndinə köçməsinə də epidemiya səbəb olmuşdur.

Göyçə mahalının 1831-ci il tarixli kameral təsvirində Göyçə aşıq mühitinin banisi, Aşıq Alının ustadı Ağ Aşıq Allahverdi də qeydə alınmışdır. O, Göyçə mahalında aşıq titulu ilə qeydə alınan yeganə şəxdir:

"GÖYÇƏ NAHİYƏSİNİN

KAMERALTƏSVİRİ. 1831-ci il.

**№40. AŞAĞI KEYTİ kəndi**

**(Başqa adi Salman kəndidir).**

*Milli tayfası*

**16.Aşıq Allahverdi Osman oğlu** 40 y; onun arvadı və iki qızı; oğlu Məhərrəm 10 y"[57].

Bu kəndin milli əhalisi 1842-ci ildən əvvəl buranı tərk etmiş (buradakı ailələrin bir çoxu Vedibasar mahalının 1842-ci ilə aid olan kameral təsvirində aşkar edildi), Ağ Aşıq isə Göyçədə qalmış və yeni yaranan Kərkibaş kəndinə köçmüşdür.

Aşıq Ələsgərlə Aşıq Musanın adlarını isə Ağkilsə kəndinin siyahısında görürük:

---

[57] Orada.

"İRƏVAN QUBERNİYASI,

YENİ BƏYAZİD QƏZASI. 1873-cü il.

**AĞKİLSƏ kəndi**

**9.6.Alməmməd Haxverdi oğlu** 49 y; dörd oğlu var: Ələsgər 21 y; Salah 18 y; Xəlil 6 y; Məhəmməd 2 y.

**24.Səfər Mustafa oğlu** 70 y (*Qazax qəzasının Tatlı kəndindən buraya köçüb*);

*iki oğlu var:* Kərim 30 y (onun oğlanları: Rəhim 4 y; Şərif 2 y; Namaz 1 y). Musa 20 y"[58].

Birinci ailədəki 21 yaşlı Ələsgər Aşıq Ələsgərdir. O,bəzi tədqiqatçıların yazdığı kimi 1821-ci ildə deyil, 1852-ci ildə doğulmuşdur. Nəinki 1821-ci, hətta 1831-ci ildə də Ağkilsə kəndi boş idi və orada heç kim yaşamırdı.[59]

İkinci ailədəki 20 yaşlı Musa Göyçəli Aşıq Musadır. 1853-cü ildə doğulan Musanın ailəsi Ağkilsəyə Qazax qəzasının Tatlı kəndindən gəlib.

1902-ci ildə Yeni Bəyazid qəzasında 4 sünni məscidi qeydə alınmışdır: bu məscidlər Rəhman kənddə, Hüseynquluağalı, Böyük Məzrə və Zod kəndlərində idi.[60]

Şiə məscidləri isə Qızılbulaq, Qızılxaraba, Yengicə Qaraqoyunlu, Ağkilsə, Hacı Muxan, Bcni, Kənkan, Qaraqala və Hüseynqulu ağalı kəndlərində idi, cəmi 9 şiə məscidi var idi.[61]

---

[58] Erm.Milli Arxivi, F.227, s.1, s.v.20.

[59] Bax: İrəvan əyalətinin kameral təsviri. IV cild. Göyçə və Dərəçiçək mahallarınım kameral təsviri (Tərcümə, tərtib, giriş mətni, qeyd və şərhlərin müəllifi N.Əhmədli). Bakı, 2021.

[60] Orada

[61] Памятная книжка Эриванской губернии на 1902 год. .. стр.120.

Hüseynquluağalı kəndində həm sünni, həm də şiə məscidi vardı.

Həmin vaxt Yeni Bəyazid qəzasının axundu Axund Qurban Cənnətzadə idi.[62]

Aşıq Ələsgərin ədəbi qəhrəmanı, 1919-cu ildə ermənilər tərəfindən xaincəsinə öldürülən məşhur Səmənd ağa və onun qohumları da Yeni Bəyazid qəzasının 1886-cı il tarixli kameral təsvirində qeydə alınmışlar:

"YENİ BƏYAZİD QƏZASININ

KAMERAL TƏSVİRİ. 1886-cı il.

**ZOD kəndi**

Müsəlman tatarlar.

Bəylər (*vergidən azaddırlar*):

Sünnidirlər. Rus dilini bilirlər. Yeni Bəyazid şəhərində təhsil alıblar.

Əkinçilik və heyvandarlıqla məşğul olurlar.

**1.1.Əmiraslan ağa Vəli ağa oğlu** 70 y; oğlanları: Abdulla ağa 35 y; Yunus ağa 15 y (3/2).

**2.2.İsgəndər ağa Vəli ağa oğlu** 52 y; oğlanları: Əsgər ağa 17 y; İdris ağa 15 y; Cahangir ağa 12 y; Həmid ağa 8 y (5/3).

**3.3.Cahanbaxış bəy Xamo ağa oğlu** 34 y.

**4.Əliş bəy Əmiraslan ağa oğlu** 34 y; oğlu Həsən ağa 6 aylıq.

**5.Səmənd ağa Xamo ağa oğlu** 38 y[63].

**6.Rəhim ağa Xamo ağa oğlu** 28 y.

**7.Nağı ağa Xamo ağa oğlu** 48 y".[64]

---

[62] Orada, s.92.

[63] Bu şəxs məşhur Göyçəli Səmənd ağadır.

[64] Erm. Milli Arxivi, F.93, s.1, s.v.232.

Vəli ağanın böyük oğlu Xamo ağa Göyçə mahalının 1831-ci ilə aid kameral təsvirində belə qeydə alınıb:

"GÖYÇƏ MAHALININ KAMERAL TƏSVİRİ. 1831-ci il.

**№ 47. ZOD kəndi**

**1.Praporşik Vəli ağa İbrahimxəlil ağa oğlu** 60 y; onun arvadı və iki qızı; iki oğlu var: praporşik Xamo ağa 19 y; Əmiraslan ağa 12 y (3/3)"[65].

Həmin vaxt Yeni Bəyazid şəhərində 3 illik şəhər məktəbi[66] və 1 illik ibtidai məktəb,[67] Yelenovka və Dəliqardaş kəndlərində isə 2 illik məktəblər,[68] Basarkeçər və Böyük Məzrə kəndlərində icma məktəbləri var idi.[69]

Qraf Paskeviç Rusiyanın xarici işlər naziri qraf Nesselroda 27 iyun 1827-ci il tarixli məktubunda yazır: "Mən dağlara məktublar göndərib oralarda yaşayan ağaları Arpaçay yaxınlığında təşkil etdiyim qurultaya dəvət etdim. Cavad xanın nəvəsi Hüseynqulu ağa da başındakı böyük bir dəstə ilə yanıma gəlib ya onu qulluğa götürməyimi, ya da tabeliyindəki 100 ailə ilə Gəncədə yaşamağına icazə verməyimi xahiş etdi. Mən xoş sözlərlə onun hər iki təklifindən boyun qaçırtdım və məsləhət gördüm ki, əvvəlki yerində qalıb itaəti altında olanların qayğısına qalsın".[70]

Paskeviçin bəhs etdiyi həmin şəxs budur:

---

[65] Erm.Milli Arxivi. F.93, s.1, s.v.232.
[66] Памятная книжка Эриванской губернии на 1902 год..., стр.82.
[67] Orada, s.83.
[68] Orada, s.84.
[69] Orada, s.86-87.
[70] АКАК, Т.7, док.512.

"GÖYÇƏ MAHALININ

KAMERAL TƏSVİRİ. 1831-ci il.

**№42. YELLİCƏ kəndi**

Qarapapaq tayfası

**1.Hüseynqulu ağa Hüseynqulu ağa oğlu** 30 y; onun arvadı və qızı (1/2)"[71].

Aşağı Keyti kəndində yaşayan milli tayfası 1834-1835-ci illərdə əvvəl yaşadıqları Vedibasar mahalına qayıtdıqdan sonra Yellicə kəndinin əhalisi həmin kəndə köçərək onu "Hüseynquluağalı" adlandırmışdılar[72].

Gəncəli Cavad xanın nəvəsi, Cavad xanla birlikdə 1804-cü il yanvarın 3-də Gəncənin P.Sisianov tərəfindən işğalı zamanı öldürülən Hüseynqulu ağanın 1804-cü ildə doğulan oğlu Hüseynqulu ağa zodlu Vəli ağanın qızı Böyük xanımla evlənmiş, bu izdivacdan 1834-cü ildə Sitarə bəyim, 1835-ci ildə Məhbub bəyim, 1838-ci ildə Ələşrəf ağa, 1850-ci ildə isə Xan Anası adında övladları doğulmuşdur.[73]

Hüseynqulu ağanın anası Zeynəb xanım Şəmşəddilli Nəsib Sultanın qardaşı qızı idi. Əri Hüseynqulu ağa həlak olandan sonra 1805-ci ildə kiçik qaynı, Cavad xanın oğlu Əliqulu xanla evlənmişdir. Onların Həsən Paşa, İsmayıl Paşa, Mahmud Paşa və Şeyda ağa adında dörd övladı olmuşdur.[74]

---

71 Erm.Milli Arxivi. F.90. s.1, s.v.88.

72 Bax: Göyçə mahalının Kameral təsviri. 1831-ci və 1842-ci illər (Tərcümə, tərtib və ön sözün müəllifi N.Əhmədli) Bakı: 2018.

73 АКАК, , Т.6, Ч.2, стр.906.

74 Orada.

## 4.Kənd təsərrüfatı və iqtisadiyyat

Yeni Bəyazid qəzasının torpaqlarının 1.000 desyatini bağlar, 197 desyatini bostan, 6.507 desyatini meşə, 19.413 desyatini suvarılan, 61 min desyatinə yaxını dəmyə əkin sahələri, 23 min desyatinə yaxını biçənəklər, 97.359 desyatini örüş yerləri və yararsız torpaqlar idi. 38.250 desyatin ərazi isə istifadə olunmayan – yollar, qayalar, arxlar, çayların ərazisi idi[75],[76].

"İrəvan quberniyasının 1902-ci il üçün yaddaş kitabçası"nda Göyçə gölü də daxil olmaqla qəzanın ərazisi 570.729 desyatin (5.479 kv. verst) göstərilmişdir.[77]

Yeni Bəyazid qəzasında torpaqları xəzinəyə məxsus olan 121 kənddən 85-də ailə başına düşən əkin sahəsi 10 desyatinə qədər, 29-da 10-15 desyatin, 9-da 15-20 desyatin, 1 kənddə isə 25 desyatin idi[78],[79].

Göründüyü kimi, əkin yerlərinin cəmi 25 %-i suvarılan torpaqlar idi. Bu torpaqlar aşağıdakı arxlarla suvarılırdı:

Ardanış kəndinin torpaqları Şahdağdan çəkilmiş arxla, Cil kəndinin torpaqları Ağbulaq kəndinin ərazisindəki bulaqlardan çəkilmiş 2 arxla, Böyük Məzrə kəndinin torpaqları Keyti çayından çəkimiş 2 arxla, Kiçik Məzrə kəndinin torpaqları Göysu çayından çəkilmiş 2 arxla, Zarzibil kəndinin torpaqları Yarıqamaz bulağından çəkilmiş 2 arxla, Qara-

---

[75] orada, s.9;

[76] Парвицкий А.В. Экономический быть государственных крестьян юго-западной части Новобаязетского уезда..., стр.323.

[77] Памятная книжка Эриванской губернии на 1902 год. Ч.4, стр.1.

[78] Orada, s.328.

[79] Парвицкий А.В. Экономический быть государственных крестьян северо-восточной части Новобаязетского уезда, Эриванской губернии.// Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т.4. Тифлис: 1886, стр.14.

qoyunlu kəndinin torpaqları Gödəkgüney bulaqlarının suyu ilə, Şişqaya, Oğruca, Sultanəli qışlağı, Zod və İnəkdağı kəndlərinin torpaqları isə həmin kəndlərin ərazisindən keçən dağ çaylarından çəkilmiş arxlarla suvarılırdı. Bəzi kənd sakinləri bu arxların üzərində icma üzvlərinin razılığı ilə dəyirman tikmişdilər. Dəyirman sahibləri işlətdikləri suya görə ildə 3-5 rubl pul ödəyir və bu məbləğ icmanın ehtiyaclarına xərclənirdi.[80]

Yeni Bəyazid qəzasının kənd əhalisi 1882-ci ilə qədər əkin yerlərini və biçənəkləri öz aralarında "hampa şərək" üsulu ilə bölüşdürürdülər. "Hampa" sözü var-dövlət, hörmət-izzət, "çərək" sözü isə "dörddə bir" mənasını verirdi. "Hampa" sözü təsərrüfatçılıqda ödəmə qabiliyyəti olan təsərrüfat vahidini, çərək isə onun dörddə birini nəzərdə tututrdu. Torpağın "hampa-çərək" üsulu ilə paylanması aşağıdakıları nəzərdə tuturdu: sakinlər hampa vahidinin və çərəyin miqdarını müəyyənləşdirir, sonra bütün əkin yerlərinin və biçənəklərin neçə çərəkdən ibarət olduğunu təyin edirdilər. Sonra hampa ailələrə müəyyən edilmiş sahəni, daha kiçik ailələrə isə ailənin gücündən asılı olaraq çərəklər, yəni 1/4-lər ayrılırdı. Ən kiçik ailəyə 1 çərək, ondan böyüyünə 2 çərək, yəni hampa ailəyə verilən payın 1/2 – i, daha böyüyünə 3 çərək, yəni hampa ailənin 3/4 –ü qədər pay ayrılırdı.[81].

Əhali artdıqca torpaq qıtlığı hiss olunmağa başladıqda, əvvəlki sərhədləri qüvvədə saxlamaqla biçənək yerlərini hampa-çərək üsulu ilə paylayıb onları da əkin yeri kimi istifadə etməyə başladılar. Lakin biçənək yerləri də tükən-

---

[80] Orada, s.19.

[81] Парвицкий А.В. Экономический быть государственных крестьян юго-западной части Новобаязетского уезда.., стр.334.

dikdən sonra torpağı az olan kasıb adamlar daha zəngin olanlara düşmən münasibəti bəsləməyə başlayanda İrəvan qubernatoru Yeni Bəyazid qəzasının rəisinə məktub göndərib təklif etdi ki, 1870-cı ildə qəbul edilmiş torpaq Əsasnaməsinə görə bütün torpaqlar adambaşına bölünsün, bölgünün vaxtı isə icma üzvlərinin 2/3 –nin səsi ilə müəyyənləşdirilsin. Bu üsulu əhali rəğbətlə qarşıladı[82].

Əkin torpaqları ən tez 3, ən geci 5 ildən bir, biçənəklər isə hər il yenidən bölüşdürülürdü, bağ və bostanların ərazisi yenidən bölüşdürülmürdü.[83]

Hər bir ailəyə düşən torpaq payı və ailə üzvlərinin sayı xüsusi torpaq dəftərinə yazılırdı. Əgər hansısa ailə iş heyvanlarının və iş alətlərinin yoxluğu səbəbindən torpağını əkib-becərə bilmirdisə, onu icarəyə vermək hüququ vardı. İcma vergisini verə bilməyən ailənin torpağını alıb başqa ailəyə verə bilərdi. Bu halda, vergini də həmin ailə ödəməli idi[84].

Daha çox əkin əkmək, biçənək və örüş yerləri istifadə etmək istəyində olan kəndlər xəzinə mülkiyyətində ehtiyatda olan torpaqları icarəyə götürürdülər. Məsələn, Qızılbulaq kənd icması sahəsi 518 desyatin olan Öküzölən adlı ərazini ildə 80 rubl ödəməklə icarəyə götürmüşdülər. Subatan kənd icması Kərbəlayı Novruzölən adlanan yerdəki 492 desyatin ərazini 60 rubla icarəyə götürmüşdü.[85]

---

[82] Orada, s..335.
[83] Orada, s.337.
[84] Orada, s.336.
[85] Парвицкий А.В. Экономический быть государственных крестьян юго-западной части Новобаязетского уезда..., стр.347-348.

Ağbulaq kənd icması Seyid Dağları deyilən ərazidə 510 desyatin ərazini ildə 300 rubla icarəyə götürmüşdü. Onun 83 desyatini əkin yeri, 138 desyatini biçənək, 237 desyatini örüş yerləri idi[86].

Zarzəbil kənd icması Yarıtmazdərə deyilən yerdə 761 desyatin ərazini 195 rubla. İnəkdağı kəndinin sakinləri isə 1.866 desyatin ərazini 47 rubla icarəyə götürmüşdülər.[87]

Bəzi kəndlərin sakinləri isə iri torpaq mülkiyyətçilərindən icarə yer götürüb əkib-biçir və heyvandarlıqla məşğul olurdular. Məsələn, Qanlı Allahverdi kəndindən olan 12 ailə Qızılbulaq kəndindən olan Şıxəli bəy Mustafa ağa oğlundan 30 desyatin ərazini, Tüskülü kənd sakinləri isə ondan 60 desyatin ərazini 210 pud buğdaya (onun 20 desyatini əkin yeri, 40 desyatini isə biçənəklər idi) icarəyə götürmüşdülər. Taxılın pudunun 50 qəpik olduğunu nəzə alsaq, bu 105 rubl edirdi. Qırxbulaq kəndindən olan 10 ailə isə Şıxəli bəy Mustafa oğlundan 30 desyatin əkin yerini icarəyə götürmüşdülər. Basarkeçər kəndindən olan 20 ailə ondan 60 desyatin əkin yerini, həmin kənddən olan 40 ailə isə Böyük Məzrə kəndindən olan torpaq mülkiyyətçisi Süleyman ağa Qulu ağa oğlundan 120 desyatin əkin yerini icarəyə götürmüşdülər[88].

Yeni Bəyazid qəzası yeni məskunlaşdırılarkən, hər ailəyə gözəyarı olaraq 30 desyatin əkinəyayarlı torpaq ayrılmışdı. Kənddə yeni ailələr artdıqca torpaq sahəsi almaq üçün yerli idarəçilərə müraciət etdikdə əhalinin istifadəsində olan torpaq sahələrini ölçüb artıq qalan hissəni onlardan aldılar və əlavə torpaq vergisi almaqla yeni yaranan ailələrə payladılar. Xəzi-

[86] Парвицкий А.В. Экономический бытъ государственных крестьян северо-восточной части Новобаязетского уезда.., стр.37.
[87] Orada, s.38.

nə mülkiyyətindəki əlavə torpaqları isə kənar şəxslərə icarəyə verirdilər. Bu şəxslər təbii ki, imkanlı şəxslər idi. Onların arasında Zod kəndinin sakini Cahanbəxş bəyi xüsusi olaraq qeyd etmək lazımdır[89].

Cahanbəxş bəy Kiçik Məzrə kəndində 180 desyatini əkin yeri, 122 desyatini biçənəklər, 70 desyatini örüş yeri olan cəmi 393 desyatin torpağı ildə 135 rubla, Kəsəmən kəndində 210 desyatini əkin yeri, 180 desyatini biçənək, cəmi 411 desyatin torpağı ildə 126 rubla, Ağyoxuş kəndində 85 desyatini əkin yeri, 339 desyatini biçənək, 939 desyatini örüş yeri olan 2.074 desyatin yeri 316 rubl 50 qəpiyə, Zod kəndindən ayrılmış 27 desyatini əkin yeri, ümumi sahəsi 1.969 desyatin olan Qızılqayası adlanan ərazini ildə 260 rubla, 139 desyatini əkin yeri olan, ümumi sahəsi 228 desyatin olan Canlı göl adlanan ərazini ildə 51 rubla, Şişqaya kəndindəki 115 desyatini əkin yeri, ümumi sahəsi 131 desyatin ərazini ildə 290 rubla icarəyə götürmüşdü.[90]

Beləliklə, Cahanbaxş bəy 1.178,5 rubl ödəməklə 5.386 desyatin ərazini icarəyə götürmüşdü. Bu ərazilərin 546 desyatini əkin torpaqları idi. Aydındır ki, onun özü də bu torpaqları kəndlilərə icarəyə verirdi. Buradan belə nəticə çıxarmaq olar ki, o Göyçə mahalında ən varlı şəxs olmuşdur.

Göyçə gölünün ətrafındakı əhali müəyyən miqdar pul ödəməklə balıqçılıqla da məşğul olurdular. Məsələn, Başkəndin əhalisi göldə icarəyə götürdükləri sahə üçün 80 rubl, Yarpızlı

---

[88] Парвицкий А.В. Экономический быть государственных крестьян юго-западной части Новобаязетского уезда…, стр.349-350.

[89] Парвицкий А.В. Экономический быть государственных крестьян северо-восточной части Новобаязетского уезда…, стр.49.

kənd icması onlara məxsus olan torpağa bitişik 2 verstin icarəsi üçün ildə 150 rubl, Zağalı kənd icması gölün kənd torpaqları ilə bitişik olan 5 verst sahəsi üçün 990 rubl icarə haqqı ödəyirdilər[91].

Kənd icmalarının əksəriyyətində öz vətəgələri yox idi, çox vaxt gölün onlara məxsus olan hissəsini başqa şəxslərə iltizama və tutulan balığın yarısına icarəyə verirdilər. Kənd sakinləri özləri bu işlə məşğul olanda öz aralarından toru olan balıqçıları bu işə dəvət edir və ovlanan balığın bir hissəsini onlara verirdilər. Balıq ovu zamanı icma tərəfindən nəzarətçilər seçilirdi. Bu nəzarətçilər ovlanan balığın bölüşdürülməsinə nəzarət edir, balıqçılar tutur, sahəni başqasına iltizama verəndə isə ova nəzarət edərək icmanın payına düşən hissəni alırdılar. Nəzarətçilər balığı və ya onun satışından əldə olunan gəliri ya əhalinin sayına, ya da hər kəsin qoyduğu pula görə bölürdülər[92].

Balıq ovu mövsümü əsasən qışın başlanması və neçə ay davam etməsindən asılı olur, adətən ya martın, ya da aprelin 1-dən iyul ayına, sentyabr ayının 1-dən noyabr və ya dekabr aylarına qədər davam edirdi.

Tutulan balıq Yeni Bəyazid, Yelizavetpol, Gədəbəy, İrəvan və Tiflis şəhərlərində, ya da İrəvan və Eçmiadzin qəzalarından olan tacirlərə satılırdı[93].

---

Orada, s.50-52.

[91] Парвицкий А.В. Экономический быть государственных крестьян юго-западной части Новобаязетского уезда..., тр.348.

[92] Orada, s.349.

[93] Orada.

İrəvan Sərdarının vaxtında Göyçə gölündə balıq ovlanması 100 tümənə (400 rubl) iltizama verilirdi.[94] 1880-ci illərdə isə hökumət bu sahədən daha artıq gəlir götürürdü. Təkcə Zağalı kəndi balıq ovlamaq üçün 990 rubl, Nərədüz kənd icması 551 rubl 25 qəpik, Eranos kənd icması 250 rubl, Aşağı Qaranlıq kənd icması 154 rubl, Yarpızlı kənd icması 150 rubl, Abdulağalı kənd icması 142 rubl icarə haqqı ödəyirdi.[95]

Əvvəllər Göyçə gölündə balıq ovlanması hüququ 1 şəxsə iltizama verilmişdi və iltizamın miqdarı 1857-ci ildə 7.500 rubla çatmışdı. XIX əsrin sonlarında tətbiq edilən yeni qaydalara görə artıq Göyçə balığından əldə olunan gəlir 14.000 rubla çatmışdı. Göl 37 sahəyə ayrılaraq ayrı-ayrı şəxslərə icarəyə verilirdi.[96]

Yeni Bəyazid qəzasında əhalinin əsas məşğuliyyəti və gəlir mənbələri əkinçilik və heyvandarlıq idi. Qəzanın istər şimal-şərq, istərsə də cənub-qərb hissələrinin dağlıq hissəsində arpa, düzənlik hissəsində isə buğda əkilirdi. Düzənlik hissədə çöl-təsərrüfat işləri martın ortalarında başlayır və oktyabr ayına qədər davam edirdi. Ərazinin 1/7 hissəsindən 1/5 hissəsinə qədəri 2-5 il dincə qoyulurdu. Torpağa gübrə verilmirdi. Yazlıq əkinləri martın ortalarında başlayır, yer cütlə şumlanır, toxum səpilir və malalanırdı. 1 desyatin dəmyə torpağa 6-10 pud buğda, 10-15 pud arpa, suvarılan torpağa isə 12-15 pud buğda, 15-18 pud arpa toxumu səpilirdi. Əkinləri birinci dəfə

---

[94] Göyçə mahalının kameral təsviri. 1831-ci və 1842-ci illər..., s.140.

[95] Парвицкий А.В. Экономический быть государственных крестьян юго-западной части Новобаязетского уезда..., стр.348.

[96] СМОМПК, вып.27. Тифлис: 1900, стр. 75-76.

mayın 20-də, ikinci dəfə isə iyunun ortalarında sulayırdılar. Taxıl biçini iyul ayının ikinci yarısında başlayır və avqust ayında başa çatırdı[97].

Dağlıq zonada qışın sərt keçib-keçməməsindən asılı olaraq əkin aprelin axırlarında və ya mayın əvvəllərində başlayır və taxıl biçini sentyabrın 1-də başa çatırdı. Dağlıq zonada daha çox arpa əkilirdi. Burada 1 desyatin əraziyə 11-15 pud buğda, 14-18 pud arpa toxumu səpilirdi[98].

Sakinlərin dediyinə görə Yeni Bəyazid qəzasının aşağı hissəsində 1 desyatindən 50-100 pud buğda, 80-150 pud arpa biçilirdi. Dağlıq hissədə 1 desyatin ərazidən 50-75 pud buğda, 100-150, hətta 180 pud arpa biçilirdi. Yerli ağaların və tacirlərin dediyinə görə taxılın məhsuldarlığı yuxarıdakı rəqəmlərdən daha yüksəkdir. Onların dediyinə görə bəzi ərazilərdə 1 desyatindən 150 pud buğda, 200 pud arpa əldə edilirdi[99].

Taxılın məhsuldarlığı buğda üçün 6-7, arpa üçün 8 sam idi.[100]

1 desyatin ərazidən 1884-cü ildə orta hesabla 100 pud buğda, 150 pud saman, 120 pud arpa biçildiyini, 1 pud buğdanın 50 qəpik, 1 pud arpanın 30 qəpik, 1 pud samanın isə 10 qəpik olduğunu nəzərə alsaq, 1desyatindən:

buğda üçün:

100 pud x 50 qəpik = 50 rubl

---

[97] Парвицкий А.В. Экономический быть государственных крестьян северо-восточной части Новобаязетского уезда.., стр.41.

[98]Orada.

[99] Orada, s.43.

[100] “Sam” səpilən toxumdan neçə dəfə artıq məhsul götürülməsini göstərən əmsaldır.

150 pud x 10 qəpik = 15 rubl

cəmi 65 rubl;

arpa üçün:

120 pud x 30 qəpik = 36 rubl

120 pud x 10 qəpik = 12 rubl

cəmi 48 rubl;

Beləliklə, 1884-cü ilin statistik məlumatına görə 1 desyatin buğda əkininidən 65 rubl, arpa əkinindən isə 48 rubl gəlir əldə edilmişdi[101].

Qəza sakinləri artıq taxıllarını İrəvan və Tiflis bazarlarında, Gədəbəy misəritmə zavodunda satırdılar. Bundan başqa, qonşu ərazilərdən olan adamlar meyvə, tərəvəz və duz gətirib onu taxıla dəyişirdilər[102].

Öz taxılını dəyirmanda üyüdən şəxslər onun 1/15 hissəsindən 1/10 hissəsinə qədərini zəhmət haqqı kimi dəyirman sahibinə ödəyirdilər.[103] Cütü 30-60 rubl olan dəyirman daşını düzəltmək üçün xammalı Naxçıvan qəzasının Culfa kəndindən və Yelizavetpol quberniyasının Cavanşir qəzasından gətirirdilər[104].

1870-ci ildə Yeni Bəyazid qəzasında 24.191 desyatin əraziyə 46.448 çetvert buğda toxumu səpilmiş və məhsuldarlıq 7 sam olmuşdu[105]. Həmin il 14.110 desyatin əraziyə

---

[101] Парвицкий. А В. Экономический быть государственных крестьян северо-восточной части Новобаязетского уезда....стр.44.

[102] Orada, s.45.

[103] Taxılı üyütmək üçün ödənilən hissəyə "şahad" deyilirdi.

[104] Парвицкий А.В. Экономический быть государственных крестьян северо-восточной части Новобаязетского уезда.., стр.45.

[105] Спасский С. Селскохозяственно-статистические сведения об Эриванской губернии за 1970 год.//Сборник сведений о Кавказе. Т.2. Тифлис: 1872, стр.172.

21.708 çetvert arpa səpilmişdi.[106] 1.103 desyatin sahəyə əkilmiş darının məhsuldarlığı isə dağlıq yerlərdə 70 sam, düzənlik yerlərdə isə 80-81 sam olmuşdu.[107]

Əhalinin əsas məşğuliyyət və gəlir mənbələrindən biri də heyvandarlıq idi. Cil, Quşçu dərəsi, Babacan dərəsi, Sadanağac, Şişqaya, Toxluca, Ağbulaq, Çubuqlu və Zod kəndlərində heyvandarlıq başqa kəndlərə nisbətən daha çox inkişaf etmişdi. Bu kəndlər Güney dağlarının ətəklərində və Məzrə düzənliyində yerləşən kəndlərdir. İribuynuzlu heyvanlar orta qiymətlə 16 rubla, xırda buynuzlu heyvanlar isə 5 rubla satılırdı. Yundan adyal, xalça, palaz, kilim, mahud, kəndir, kisə və məişətdə istifadə olunan digər şeylər toxunurdu[108].

1870-ci ilin statistik məlumatlarına görə Yeni Bəyazid qəzasında 8.254 at, 7.411 baş kəl, camış və balaq, 31.997 baş öküz, 23.573 inək və buzov, 161.004 baş qoyun və keçi, 1.187 baş donuz, 154 dəvə, 2.836 qatır və ulaq, cəmi 236.416 baş ev heyvanı qeydə alınmışdır.[109]

Qış vaxtı iş heyvanlarından yük daşınması üçün istifadə edilirdi. Yeni Bəyazid qəzasından İrəvan şəhərinə taxıl və balıq, İrəvan şəhərindən Ağstafa dəmiryol stansiyasına pambıq, Ağstafadan geriyə isə sənaye malları daşınırdı. 1 xalvar (30 pud) yükün İrəvan şəhərindən Dilicana daşınması üçün 1,2 – 3 rubl, İrəvandan Ağstafaya qədər 1 xalvar yük üçün

---

[106] Orada, s.173-174.
[107] Orada, s.175.
[108] Парвицкий А.В. Экономический быть государственных крестьян северо-восточной части Новобаязетского уезда..., стр.47.
[109] Спасский С. Селскохозяственно-статистические сведения об Эриванской губернии за 1970 год..., стр.195.

3,5 – 6 rubl, qəza daxilində isə 1 xalvar yükün 50 verst daşınması üçün 3 rubl alınırdı. Yüklər İrəvandan Ağstafaya 7 – 10 günə çatdırılırdı, yəni gündə 17 – 25 verst yol qət edilirdi. Ruslar furqonla, türklər və ermənilər isə kəl arabası ilə daşımaçılıq edirdilər. 4 atın qoşulduğu furqonla 100 pud, araba ilə 60 pud yük daşınırdı[110].

Yaxın kəndlərdən Yeni Bəyazid şəhərinə yanacaq üçün istifadə olunan "kərmə" adlanan mal təzəyini aparıb 1 kub sajenini[111] 70 – 10 rubla satırdılar[112].

Sakinlər taxılı, süd məhsullarını, mal-qaranı, yunu və başqa şeyləri İrəvana, Dilicana, Gədəbəy və Yeni Bəyazidə aparıb məişət əşyalarına - dəmir, ayaqqabı, parça, qab-qacaq, şüşə və başqa şeylərə dəyişirdilər[113].

Sənaye məntəqələrindən uzaqdakı ərazilər yerli tacirlər tərəfindən razılıq əsasında ərazilərə bölünür və onlar həmin ərazilərdə dükan açırdılar. Burada parça və əhaliyə lazım olan başqa şeylər satılırdı. Lazım gəldikdə onlar bu malları yerli sakinlərə nisyə də verir, yayda və payızda "prikazçik"[114] adlanan şəxsləri göndərib borcun əvəzinə taxıl, mal-qara, heyvandarlıq məhsulları, şəhərə yaxın kəndlərdən hətta ot və təzək yığıb bazarda satırdılar. Kənd təsərrüfatı məhsullarının qiymətini tacirlər özü,

---

110 Парвицкий А.В. Экономический быть государственных крестьян северо-восточной части Новобаязетского уезда..., стр.46.

111 1 sajen 2,13 m, 1 kub sajen isə 9,66 kub metrə bərabərdir.

112 Парвицкий А.В. Экономический быть государственных крестьян северо-восточной части Новобаязетского уезда..., стр.46

113 Orada, s.47.

114 Prikazçik sözünün mənası burada tacir dükanında satıcı, mağaza xidmətçisi anlamındadır.

bəzən isə kənd icmasının seçilmiş nümayəndəsi ilə birlikdə müəyyən edirdilər[115].

Yeni Bəyazid qəzasının iqlimi sərt olduğuna görə burada ipəkçilik, bağçılıq və üzümçülüklə məşğul olmurdular[116].

Bostançılıq əsasən Zəngi və Misxana çaylarının axdığı vadilərdə yerləşən kəndlərdə inkişaf etmişdi. Bostan bitkilərindən soğan, kələm, kartof, çuğundur, kök, çətənə və başqa şeylər əkirdilər[117]. 1870-ci ildə Yeni Bəyazid qəzasında 364 desyatin ərazidə bostan bitkiləri əkilmişdi.[118]

1870-ci ildə bütün İrəvan quberniyasında mövcud olan 7.032 arı pətəyinin 2.310-u Yeni Bəyazid qəzasında idi. Balın qiyməti 1 pud üçün 5 rubl 50 qəpik, 1 pud mumun qiyməti isə 10 rubl idi.[119]

Misxana (Novo-Mixaylovka) kəndində yaşayan yunanlar bənnalıq edir, yonulmaş daşla 1 kv. sajen divarı 2,5 – 3 rubla hörürdülər[120].

1825-ci ildə İrəvan sərdarı Hüseynqulu xan 16 yunan ailəsini mis istehsalı üçün Türkiyədən gətirmişdi. Yunanlar 1804-cü ildə də bir müddət Dərəçiçək mahalında bu işlə məşğul olmuş, cəmi 150 pud mis istehsal edəndən sonra işin çətinliyinə görə çıxıb öz ölkələrinə getmişdilər.[121]

---

[115] Парвицкий А.В. Экономический быть государственных крестьян северо-восточной части Новобаязетского уезда..., стр.48.
[116] Orada, s.48.
[117] Orada.
[118] Спасский А. Селскохозяственно-статистические сведения об Эриванской губернии за 1970 год..., стр.185.
[119] Orada, s.190.
[120] Парвицкий А.В. Экономический быть государственных крестьян северо-восточной части Новобаязетского уезда..., стр.48.
[121] АКАК, Т.7, док.92.

Dərəçiçək mahalı faydalı qazıntılarla çox zəngin idi. Burada mis və dəmir filizi, qranit, amfibolit, əhəng daşı, ağ kvars, bazalt, obsidian yataqları, mineral sular, zəngin meşə örtüyü vardı. Burada palıd, çinar və başqa ağaclar olsa da, tozağacı üstünlük təşkil edirdi.[122]

Cənub-şərq tərəfdən Göyçə gölünə tökülən çayların qumunda qızıl vardı.[123]

Əsasən kasıb ailələrdən olan 5.065 kişi İrəvan, Tiflis, Yelizavetpol şəhərlərinə və Gədəbəy misəritmə zavoduna yollanıb işin ağırlığından asılı olmaqla, 30-70 qəpiyə günəmuzd fəhlə işləyib ayda 10 – 20 manat pul qazanırdılar[124].

Yeni Bəyazid qəzasında xalçaçılıq geniş yayılmışdı. 1902-ci ilin məlumatına görə Zod kəndində 20 ailə, Cil kəndində 15 ailə, Ardanış kəndində 10 ailə, Böyük Məzrə kəndində 7 ailə, Hüseynquluağalı kəndində 5 ailə, Kərkibaş kəndində 3 ailə, Qızılbulaq kəndində 4 ailə, Daşkənddə 17 ailə, Qızılxaraba kəndində 5 ailə, Xartlıq kəndində 4 ailə, Siçanlı kəndində 2 ailə, Yarpızlı, Təkəli, Kənkan və İkinci Qaraqala kəndlərinin hər birində 3 ailə, Bjni kəndində 5 ailə, Dəvəxaraba kəndində 4 ailə, cəmi 113 ailə bu işlə məşğul olurdu və 3.390 rubl dəyərində əmtəə - xalça, palaz, cecim, xurcun, marfaş və başqa şeylər toxumuşdular.[125]

Qeyd etmək lazımdır ki, yuxarıdakı rəqəmlər şübhə doğurur. Çünki Yeni Bəyazid qəza rəisinin verdiyi məlumata görə Tiflisdə və başqa şəhərlərdə bu əmtəələrə tələbat artdı-

---

122 Orada.
123 Orada.
124 Orada, s.49.
125 Памятная книжка Эриванской губернии на 1902 год.., стр.130-131.

ğına görə tacirlər başlıca olaraq Yeni Bəyazid şəhərində və Basarkeçər kəndində onları alıb başqa şəhərlərdə satmağa aparırdılar. Yeni Bəyazid şəhərindəki 3 nəfər yerli tacir hər il 2.500 rubl dəyərində xalça – palaz alırdı. Basarkeçər kəndində 3 yerli tacirin hər biri 800 – 1.000 rubl dəyərində, Şuşa şəhərindən olan bir nəfər isə 3.000 – 4.000 rubl dəyərində xalça – palaz almışdı. Bundan başqa, Aleksandropol şəhərindən də xalça-palaz almaq üçün İrəvana tacirlər gəlirdi. Beləliklə, təkcə Yeni Bəyazid qəzasında 15.000 – 17.000 rubl dəyərində xalça – palaz alınıb Tiflis şəhərinə göndərilirdi.[126]

Bir nəfər xeyriyyəçinin Yeni Bəyazid şəhərindəki 2 illik məktəbə ianə etdiyi pulla 1901-ci ildə orada xalça emalatxanası açılmışdı.[127]

Milli mənsubiyyətindən asılı olmayaraq Yeni Bəyazid qəzasının bütün əhalisi zəhmətkeş idi və yaxşı yaşayırdılar. Nadir hallarda dilənçiyə rast gəlinirdi[128].

### *5. Vergi və mükəlləfiyyətlər*

Kənd icmalarına tətbiq edilən vergilər dövlət vergisi, zemski vergiləri və ictimai vergilər olmaqla üç kateqoriyaya bölünürdü. Dövlət və zemski vergilərinin də hər biri 2 kateqoriyaya ayrılırdı. Dövlət vergiləri ev vergisi və torpaq vergisindən, zemski vergilər isə dövlət və quberniya vergisindən ibarət idi. Zemski vergilər bütün kəndlər üzrə eyni olmaqla 7 rubl 80 qəpik idi, onun 5 rublu

[126] Orada, s.136.
[127] Orada.
[128] Orada, s..57.

dövlət vergisi, 2 rubl 80 qəpiyi isə quberniya vergisi idi. Dövlət vergiləri isə müxtəlif kəndlər üzrə müxtəlif idi – ev vergisi 3 rubldan 10 rubla qədər dəyişirdi. Baş Gözəldərə kəndi 1877-ci ildə məskunlaşdırıldığına görə kənd sakinləri 1887-ci ilə qədər vergidən azad edilmişdilər[129].

İctimai və icma vergiləri kənd idarəsinin, kənd məktəbinin, sahə və yaylaqların saxlanmasına, ruhanilərə və s. xərclənirdi. Kənd icmaları ictimai vergiləri əksər hallarda pulla yox, kənd təsərrüfütı məhsulları – taxıl, ot, lavaş və başqa şeylərlə ödəyirdilər[130].

İcma və ictimai ehtiyaclara çəkilən xərclər müxtəlif kəndlərdə müxtəlif idi. Məsələn, bir sıra kəndlərdə kətxuda, onun müavini, kənd hakimləri maaş almırdılar.

86 ailə, 451 kişi, 429 nəfər qadın, 880 nəfərin yaşadığı Qızılbulaq kənd icması 605,9 rubl ev vergisi, 647,4 rubl zemski vergisi, 308 rubl ictimai vergi ödəmişdi ki, bu da evbaşına 18,15 rubl olmuşdu. Bu rəqəm Qızılvənk kəndi üzrə 15,15 rubl, Qanlı Allahverdi kəndi üzrə 20,16 rubl, Kərkibaş kəndi üzrə 11,16 rubl, Çamırlı kəndi üzrə 12,78 rubl, Yanıqpəyə üzrə 9,52 rubl, Yarpızlı kəndi üzrə 24,56 rubl və s. olmuşdu. Bu kəndlər Yeni Bəyazid qəzasının cənub-qərb hissəsində yerləşən kəndlər idi[131].

Yeni Bəyazid qəzasının şimal-şərq hissəsində yerləşən kəndlərdə isə vergilər belə idi: Ağbulaq kəndində ildə evbaşına

---

[129] Парвицкий А.В. Экономический быть государственных крестьян юго-западной части Новобаязетского уезда.., стр.363.

[130]Orada, s.363-364.

[131] Парвицкий А.В. Экономический быть государственных крестьян юго-западной части Новобаязетского уезда..., стр.382-385.

12 rubl, Ardanış kəndində 19,6 rubl, Ağkilsə kəndində 19,2 rubl, Hüseynquluağalı kəndində 18,3 rubl, Zarzəbil kəndində 18,77 rubl, Zod kəndində 17,7 rubl, İnəkdağı kəndində 18 rubl, Kəsəmən kəndində 17,76 rubl, Sarıyaqub kəndində 22,12 rubl, Şişqaya kəndində 17,38 rubl vergi ödəyirdilər[132].

• • •

"Yeni Bəyazid qəzasının kameral təsviri. 1873-cü il" kitabının oxucularda maraq doğuracağına ümid edərək onun elmi redaktoru A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun direktoru prof. K.Şükürova, rəyçilərə, Milli Arxiv İdarəsinin rəisi prof. Ə.Rəsulova, öz köməyinin müəllifdən əsirgəməyən Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin bütün əməkdaşlarına və onun işıq üzü görməsində əməyi keçən bütün şəxslərə təşəkkür edirəm.

---

132 Парвицкий А.В. Экономический быть государственных крестьян северо-восточной части Новобаязетского уезда..., стр.60-66.

# YENİ BƏYAZİD QƏZASININ KAMERAL TƏSVİRİ 1873-cü il

**Erm. Milli Arxivi, F.267, s.1, s.v. 20.**

**ABDALAĞALI kəndi (v.2-14)**

***Kənddə 37 erməni ailəsi, 214 kişi və 197 qadın yaşayır.***

***Yoxlamanı həyata keçirdi və kameral təsviri tərtib etdi: Yeni Bəyazid qəzasının rəisi Ostaşov.***

**AĞBULAQ kəndi (v.15-30)**

Xəzinə torpaqlarında yaşayan vergi mükəlləfiyyətli müsəlman tatarlar.

Əkinçiliklə məşğul olurlar.

**1.1. Murtuzaqulu Kərbəlayı Həsən oğlu** 39 y; oğlanları: Mürsəl 23; Əsgər 17 y; Ələkbər 10 y; Süleyman 7 y; İrza 2 y (6/3).

**2.2. Kərbəlayı Hüseyn Kərbəlayı Həsən oğlu** 45 y; oğlanları: Əsəd 19 y; Abbasəli 16 y; qardaşı Ramazan 34 y (4/8).

**3.3. Zeynal Mirzə oğlu** 64 y; oğlanları: Vəli 31 y; Murad 24 y; Sadıq 8 y (4/3).

**4.4. Ağacan İsmayıl oğlu** 44 y; oğlanları: Abbasəli 22 y; Məmməd 7 y (3/3).

**5.5. Zeynalabdin Qurbanəli oğlu** 64 y;

***oğlanları:*** Qurbanəli 39 y; onun oğlu Hüseyn 5 y;

Kazım 21 y; İsmayıl 12 y; Əli 9 y; Ələkbər 5 y (7/5).

**6.6. Kərbəlayı Qədim Səfər oğlu** 64 y; oğlanları: Əli 22 y; Vəli 18 y (3/2).

**7.7. Ələkbər Kərbəlayı Süleyman oğlu** 26 y; qardaşı İsmayıl 19 y (2/2).

**8.8. Həsso Molla Vəli oğlu** 54 y;

***oğlanları:*** Vəli 32 y; onun oğlu Məhərrəm 1 y;

Əli 23 y; Həsən 20 y; Hüseyn 15 y; Alı 7 y (7/3).

**9.9. Kərbəlayı Sadıq Məmmədhəsən oğlu** 44 y; oğlu Abbas 7 y; əmisi Namazın oğlanları: Məhərrəm 26 y; Əli 21 y; Alı 9 y (5/4).

**10.10. Zaman Mehdi oğlu** 32 y; oğlu Şaban 3 y (2/2).

**11.11. Seyid Məşədi Əsgər (adı həm də Ağakişidir) oğlu** 54 y (1/1).

**12.12. Rəhim İbrahim oğlu** 44 y;

***qardaşları:*** Əliməhəmməd 32 y; onun oğlu Ələkbər 5 y;

Allahverdi 29 y; onun oğlu Mehdi 1 y (5/6).

**13.13. Hacı Mərdan Həsən oğlu** 49 y; oğlanları: Həsən 19 y; Salman 6 y; Abbasəli 2 y (4/2).

**14.14. Kərbəlayı Həsən İrzaqulu oğlu** 39 y; oğlanları: Əli 10 y; Abdulla 7 y; İrza 3 y; qardaşları: Vəli 24 y; Əli 21 y (6/5).

**15.15. Hacı Hüseyn Hüseynqulu oğlu** 44 y; oğlu Kazım 20 y (2/6).

**16.16. İbrahim Əli oğlu** 64 y; oğlanları: Əli 29 y; Abutalıb 10 y; Cəfər 6 y (4/4).

**17.17. Nəsib Məşədi Heydər oğlu** 19 y; qardaşı Məhəmməd 10 y; qardaşı İsgəndərin oğlu Heydər 5 y (3/3),

**18.18. Kərbəlayı Məmmədhəsən Molla Nağı oğlu** 59 y;

***oğlanları:*** Məmmədbağır 24 y; onun oğlu Məmməd 5 y;

Zeynalabdin 21 y;

***qardaşları:*** Məmmədqulu 35 y; onun oğlanları: Nağı 6 y; İrza 2 y;

Ələkbər 25 y; onun oğlu Qasım 1 y (9/6).

**19.19. Kərbəlayı Mehdi Kərbəlayı Qulu oğlu** 59 y; oğlu Məmmədbağır 17 y (2/1).

**20.20. Kərbəlayı Qasım Molla Nağı oğlu** 44 y; oğlanları: Məsim 24 y; İsmayıl 19 y; Məhərrəm 18 y; Əli 6 y; Süleyman 3 y;

***qardaşı*** Əhməd 34 y; onun oğlanları: Məhəmməd 10 y; Abbas 7 y; Sadıq 5 y; Həsən 3 y (11/8).

**21.21. Həsən Hacı Qasım oğlu** 47 y; oğlanları: Bayram 17 y; Qasım 3 y (3/3).

**22.22. Bayram Kərbəlayı Babakişi oğlu** 34 y; oğlanları: Əli 7 y; Mehdi 5 y; Salman 3 y;

***qardaşları:*** Allahverən 39 y; onun oğlanları: Babakişi 15 y; Nəsib 7 y;

Nəsrulla 24 y; onun oğlu Məhəmməd 1 y (9/7).

**23.23. Məşədi Məmməd Məşədi Məhərrəm oğlu** 64 y;

***oğlanları:*** Zaman 44 y; onun oğlanları: Əsgər 10 y; Abutalıb 5 y;

Şaban 36 y; onun oğlanları: Yusif 5 y; Səməd 2 y;

Zeynalabdin 24 y (8/8).

**24.24. Kərbəlayı Ağababa Məşədi Məmmədxan oğlu** 49 y; oğlanları: Həsənalı 24 y; Tağı 21 y; İbrahim 18 y; İsmayıl 8 y (5/5).

**25.25. Cəfər Kərbəlayı Ələsgər oğlu** 31 y; oğlu Abuzər 7 y; qardaşları: Sadıq 29 y; Musa 20 y; Məhəmməd 12 y; Zeynalabdin 8 y (6/3).

**26.26. Əli Mustafa oğlu** 50 y; oğlanları: Hüseynəli 24 y; Mustafa 20 y; Məhəmməd 6 y (4/4).

**27.27. Səfər Səfərəli oğlu** 34 y; oğlanları: Sadıq 7 y; Usub 2 y (3/3).

**28.24. Kərbəlayı Hüseyn Məşədi Məmmədxan oğlu** 39 y; oğlanları: Rüstəm 10 y; Zal 3 y;

***qardaşı*** Əli 34 y; onun oğlanları: Məmməd 7 y; Salman 4 y; Abdi 2 y (7/6).

**29.22. Cəfərqulu Hacı Qurban oğlu** 36 y; oğlu Qurban 7 y; qardaşları: Sadıq 24 y; Kazım 19 y; Həsən 15 y (5/2).

**30.25. Allahverdi Cəfər oğlu** 49 y; oğlanları: Əli 20 y; Abbas 10 y; Kazım 8 y (4/4).

**31.10. Novruz Əmiraslan oğlu** 40 y; oğlanları: Əmiraslan 12 y; Abbasəli 8 y; Salman 6 y; Abdi 2 y;

***qardaşları:*** Rüstəm 31 y; onun oğlu İsmayıl 1 y;

Məmməd 26 y; Həsən 23 y; Hüseyn 19 y (10/5).

**32.3. Mirzəli Zeynal oğlu** 39 y; oğlanları: Əli 15 y; İsmayıl 10 y; Məhərrəm 2 y; qardaşı Kərbəlayı Əli 34 y (5/7).

**33. Məhəmməd İbrahim oğlu** 25 y; oğlu Əli 2 y (2/2).

**34.13. Kərbəlayı Sadıq Həsən oğlu** 39 y; oğlu Hüseyn 10 y (2/4).

**35.11. Zeynal Seyid oğlu** 36 y; oğlanları: Məmməd 10 y; Əli 7 y; Hüseyn 4 y (4/1).

**36.11. Abdulla Seyid oğlu** 31 y; oğlanları: Tağı 3 y; Səməd 6 y (3/2).

**37.5. Abbas Kərbəlayı Zeynalabdin oğlu** 39 y; oğlanları: Məmməd 12 y; Hümbət 8 y; Vəli 2 y; qardaşı Kərbəlayı Əli 32 y; əmisi oğlu Kəzbalı (?) Əsgər oğlu 28 y (6/6).

**38. Kərbəlayı Haxverdi Hüseyn oğlu** 49 y; oğlanları: Hüseyn 12 y; Həsən 5 y (3/3).

*Rəhbərliyin sərəncamı ilə Qazax qəzasının Daş Salahlı kəndindən bu kəndin siyahısına keçirilmişdir.*

**39. Tanrıverdi Babacan oğlu** 25 y; oğlanları: Vəli 5 y; Muxtar 1 y;

***qardaşı*** Məmmədbağır 20 y; onun oğlu Əhməd 1 y;

qardaşı Məmmədhüseynin oğlu Əli 12 y; əmisi oğlu Məmməd Pirverdi oğlu 7 y (7/6).

**40.27. Kərbəlayı Əli Səfərəli oğlu** 39 y; oğlanları: Abbasəli 12 y; Əhməd 9 y; Məmməd 4 y; qardaşı oğlu Balı Məmməd oğlu 20 y (5/4).

**41.19. Abbas Mehdi oğlu** 29 y; oğlanları: Əli 6 y; Məmməd 2 y; qardaşı Əhməd 20 y (4/1).

**42.19. Qulu İbrahimxəlil oğlu** 21 y; qardaşları: Ələkbər 19 y; Məhərrəm 9 y (3/2).

**43.21. Abbas Hacı Qasım oğlu** 44 y; oğlanları: Süleyman 6 y; Aslan 3 y; Rüstəm 1 y (4/2).

**44.24. Kərbəlayı Abdulla Məmmədxan oğlu** 44 y; oğlanları: Ələkbər 16 y; Oruc 10 y; Ələsgər 5 y (4/2).

**45.21. Kəlam Hacı Qasım oğlu** 38 y; oğlanları: Cabbar 10 y; Cəlil 7 y; Xəlil 5 y; Səfər 2 y (5/1).

**46.25. Kərim Cəfər oğlu** 44 y; oğlanları: Hüseyn 24 y; Həsən 22 y; Abdi 13 y; Vəli 8 y (5/3).

**47.13. Əsgər Səfər oğlu** 29 y; qaardaşları: Qərib 14 y; Tağı 10 y; Nağı 8 y; Abbas 5 y; Bayram 2 y (6/4).

**48.11. Ağakişi Seyid oğlu** 28 y; qardaşı Əsgər 23 y (2/4).

**49.1. Tağı Kərbəlayı Həsən oğlu** 30 y; qardaşı İsgəndərin oğlanları: Əli 6 y; Məmməd 3 y (3/3).

**50. Hüseynəli ağa Allahverdi oğlu** 60 y; oğlanları: Allahverdi 35 y; Həsənəli 15 y; Süleyman 10 y (4/3).

*1866-cı ildə Türkiyədən gəliblər.*

**51.23. Şaban Məşədi Məmməd oğlu** 36 y; oğlanları: Usub 5 y; Səməd 2 y (3/1).

***Kənddə 51 ailə, 234 kişi və 188 qadın yaşayır.***

***Yoxlamanı həyata keçirdi və kameral təsviri tərtib etdi: Yeni Bəyazid qəzasının rəisi Ostaşov.***

**HAXVERƏN kəndi (v.31-39)**

Xəzinə torpaqlarında yaşayan vergi mükəlləfiyyətli müsəlman tatarlar.

Əkinçiliklə məşğul olurlar.

**1.1. Hümbət Tağı oğlu** 96 y; oğlanları: Əhməd 40 y; Nağı 38 y; Murtuza 22 y; Əhmədin oğlanları: Həsən 10 y; Mustafa 2 y; Nağının oğlu Cəmil 3 y (7/-).

**2.2. Qulu Sadıq oğlu** 96 y; oğlanları: Sadıq 34 y; Moli 10 y; Sadığın oğlanları: Xudaverdi 8 y; Haxverdi 5 y; Ramazan 3 y (6/-).

**3.3. Tanrıverdi Rəhim oğlu** 50 y; oğlanları: Məhərrəm 25 y; Haxverdi 12 y; Əli 10 y;

***qardaşları:*** Allahverdi 46 y; onun oğlu İsmayıl 16 y;

Məhəmməd 34 y (7/8).

**4.4. Şərif Xudu oğlu** 36 y; oğlanları: Əhməd 8 y; Həsən 4 y (3/5).

**5.5. Yaqub Bayram oğlu** 49 y; oğlanları: Xəlil 13 y; Bayram 8 y; Xudaverdi 6 y; Məmməd 4 y; Hüseyn 2 y (6/4).

**6.6. Rüstəm İsmayıl oğlu** 54 y; oğlanları: Məmməd 22 y; Hüseyn 17 y; Həsən 19 y (4/4).

**7.7. İsmayıl Süleyman oğlu** 24 y; qardaşı Məmməd 15 y (2/1).

**8.8. İsaq Məmməd oğlu** 64 y; qardaşları: Ağaməmməd 29 y; Cəfər 10 y; Ağaməmmədin oğlu Kərim 8 y (4/3).

**9.9. İbrahim Məmməd oğlu** 54 y;

***oğlu*** Məmməd 24 y; onun oğlu Hüseyn 6 y (3/3).

**10.10. Əli Cəfər oğlu** 24 y; qardaşları: Hüseyn (adı həm də Yaqubdur) 26 y; Eylaz 13 y; İsgəndər 5 y (4/3).

**11.12. Doluxan Cəfər oğlu** 66 y; oğlanları: Zeynalabdin 24 y; Abbas 22 y; Əli 19 y; Xıdır 4 y (5/5).

**13.14. Xudaverdi Yarməmməd oğlu** 64 y; oğlanları: İrza 27 y; Şıxı 25 y; Həsən 13 y; Bayram 7 y; Məhərrəm 3 y; qardaşı oğlu Allahverdi 8 y (7/8).

**14.15. Yaqub Abbas oğlu** 26 y; qardaşı Hüseyn 22 y (2/3).

**15.16. Nurəli Qurban oğlu** 38 y; oğlanları: İrza 6 y; Məmməd 4 y (3/7).

**16.17. Adıgözəl Bədəl oğlu** 19 y; qardaşı Oruc 13 y (2/1).

**17.18. Qasım Məmməd oğlu** 39 y; oğlanları: Ələsgər 13 y; Bayram 11 y; Mədət 6 y; Əli 2 y; qardaşları: Mehdi 36 y; Hüseyn 26 y; Həsən 22 y; Abdulla 10 y; Ələkbər 8 y (10/4).

**18.19. Novruz Sadıq oğlu** 77 y;

***oğlanları:*** Qəmbər 39 y; onun oğlanları: İsmayıl 12 y; Həsən 10 y; Əsəd 8 y;

Hüseyn 17 y; Ələsgər 15 y (7/3).

**19.20. Mahmud Əli oğlu** 26 y; oğlu Əli 7 y; qardaşları: Vəli 20 y; Məmməd 19 y; Əhməd 8 y (5/4).

**20.23. Məmməd Əmir oğlu** 20 y; oğlu Heydər 6 y (2/1).

**21.22. Həsən Qurban oğlu** 44 y; oğlanları: İsmayıl 8 y; Haxverdi 6 y (3/3).

**22.24. Novruz Əsgər oğlu** 24 y; qardaşları: Bayram 20 y; Eylaz 10 y (3/2).

**23.10. Mustafa Əliverdi oğlu** 18 y (1/1).

**24.21. Novruz Bayramnağı oğlu** 54 y (1/1).

**25.6. Tağı Hümbət oğlu** 49 y; oğlanları: Əli 10 y; Məmməd 8 y; Eylas 5 y (4/2).

**26.12. Ocaqqulu Cəfər oğlu** 64 y; oğlanları: Mehdi 13 y; Cəfər 10 y; Şahbəndə 8 y; nəvəsi Məmməd 8 y; Hüsən 6 y; Məhərrəm 4 y; Qəmbər 2 y (8/3).

**27.13. Həsən Baba oğlu** 54 y; oğlanları: Məmməd 8 y; Əsəd 6 y; Əli 4 y (4/4).

**28.22. Əli Aşur oğlu** 25 y; qardaşı Vəli 13 y (2/2).

**29. Mehdi Allahverdi oğlu** 25 y; qardaşı Abdulla 20 y (2/4).

**30.6. Səfi İsmayıl oğlu** 44 y; oğlanları: Musa 24 y; İsmayıl 22 y (3/1).

**31. Abbas Kərbəlayı Ruşan oğlu** 8 y; qardaşı Allahverdi 5 y (2/4).

**32.5. İbrahim Bayram oğlu** 26 y (1/1).

**33.4. Məmməd Qasso oğlu** 34 y (1/6).

**34.10. Yolçu Ramazan oğlu** 22 y (1/2).

**35. Usub Nəsib oğlu** 25 y; qardaşı Vəli 30 y; onun oğlu Abbas 10 y (3/2).

***Haxverən kəndində 25 ailə, 128 kişi və 115 qadın yaşayır, hamısı tatardır.***

***Yoxlamanı həyata keçirdi və kameral təsviri tərtib etdi: Yeni Bəyazid qəzasının rəisi Ostaşov.***

**YUXARI ADIYAMAN kəndi (v.40-57)**

***1-54. Erməni ailələri.***

***54 erməni ailəsinin siyahısı.***

***Kənddə 54 erməni ailəsi, 322 kişi və 267 qadın yaşayır.***

***Yoxlamanı həyata keçirdi və kameral təsviri tərtib etdi: Novobəyazid qəzasının rəisi Ostaşov.***

**AŞAĞI ADIYAMAN kəndi (v.59-86)**

***102 erməni ailəsinin siyahısı.***

***Kənddə 102 erməni ailəsi, 498 kişi və 457 qadın yaşauır.***

***Yoxlamanı həyata keçirdi və kameral təsviri tərtib etdi: Yeni Bəyazid qəzasının rəisi Ostaşov.***

**AĞZIBİR kəndi (v.87-100)**

Xəzinə torpaqlarında yaşayan vergi mükəlləfiyyətli müsəlman tatarlar.

Əkinçiliklə məşğul olurlar.

**1.1. İsmayıl Məmməd oğlu** 47 y; oğlanları: Vəli 21 y; Əliş 16 y; Məmməd 15 y; Məhərrəm 8 y; Qurban 5 y (6/3).

**2.2. Süleyman Bədəl oğlu** 89 y;

***oğlanları:*** Novruz 21 y; onun oğlu Məhərrəm 3 y;

Məmməd 18 y; Vəli 8 y; Vəli 8 y; Əli 5 y; Məhəmməd 1 y (7/5).

**3.3. Xosro Qoca oğlu** 69 y; oğlanları: Kərim 19 y; Abbas 7 y (3/3).

**4.1. Mustafa Məmməd oğlu** 44 y; oğlanları: Cabbar 7 y; Məmməd 5 y; Əhməd 3 y; qardaşı Abdulla 40 y; onun

oğlanları: Məmmədəli 9 y; Abbas 5 y; qardaşı oğlu Əli İbrahim oğlu 24 y (8/9).

**5.3. Əli Rüstəm oğlu** 17 y; qardaşları: Vəli 6 y; Əli 6 y (3/2).

**6.3. Əmiraslan Qoca oğlu** 45 y; oğlanları: Məmməd 7 y; Qəhrəman 5 y; Əhməd 3 y (4/4).

**7.3. Kazım Qoca oğlu** 40 y; oğlanları: Məsim 5 y; Rəhim 3 y (3/2).

**8.4. Hacı Nəsib Əli oğlu** 69 y;

***oğlanları:*** Məmməd 22 y; onun oğlanları: Cabbar 3 y; Qəmbər 2 y; Əli 1 y;

Əhməd 7 y; Abbas 3 y (7/4).

**9.5. Qulu Məşədi Xəlil oğlu** 44 y; oğlanları: Məmməd 8 y; Məsim 5 y; Xəlil 3 y; Abbas 1 y; qardaşı Vəlinin oğlanları: Mərdan 3 y; Əlihüseyn 1 y (7/5).

**10.5. İsmayıl Məşədi Xəlil oğlu** 31 y; oğlu Paşa 3 y (2/3).

**11.5. Əliş Məşədi Xəlil oğlu** 24 y (1/2).

**12.6. Bünyad İbrahim oğlu** 16 y; qardaşları: Məmməd 10 y; Hüseyn 3 y (3/3).

**13.7. Hüseyn Əli oğlu** 51 y; oğlanları: Əli 22 y; Hümbət 15 y; Mustafa 12 y; Novruz 1 y (5/2).

**14.18. Yusif Molla Məmməd oğlu** 35 y; oğlanları: Məmməd 8 y; Hümbət 6 y; Abbas 4 y; Abdulla 2 y; qardaşı Nurunun oğlanları: Nəbi 20 y; Əhməd 16 y (7/1).

**15.8. Süleyman Molla Məmməd oğlu** 42 y; oğlu Məhərrəm 3 y (2/2).

**16.9. Hacı Mehdi Ocaqverdi oğlu** 74 y;

***oğlanları:*** Bayraməli 35 y; onun oğlu Abbas 2 y; Məmməd 20 y; Əlimərdan 16 y; Məsim 10 y (6/6).

**17.10. Kərim Adıgözəl oğlu** 23 y; oğlu Cəlil 2 y; qardaşları: Vəli 18 y; Ocaqverdi 3 y (4/3).

**18.11. İbrahimxəlil Ocaqverdi oğlu** 45 y; oğlanları: Rəhim 21 y; Məmmədəli 15 y; Abdulla 12 y; Əli 5 y; Əmrah 3 y; Abbas 1 y (7/2).

**19.12. Yusif Əli oğlu** 92 y;

***oğlu*** Mustafa 39 y; onun oğlanları: Əhməd 7 y; Qurban 5 y; Əlipaşa 1 y;

nəvələri (Əlinin oğlanları): Abdulla 17 y; Ağakişi 10 y (7/4).

**20.12. Məmməd Yusif oğlu** 31 y (1/4).

**21.13. Əli Allahverdi oğlu** 79 y; oğlanları: Məmməd 16 y; İsmayıl 10 y; Gülməmməd 8 y; Balı 6 y; Məhərrəm 4 y (6/2).

**22.13. Mustafa Əli oğlu** 28 y (1/1).

**23.14.Namaz Musa oğlu** 62 y; oğlanları: Abbas 21 y; Əli 18 y (3/2).

**24.15. Tarverdi Kərbəlayı Ağasalah oğlu** 42 y; oğlu Abbas 3 y (2/4).

**25.16. Mahmud Nağı oğlu** 47 y; oğlanları: Novruz 16 y; Balı 12 y; Əli 5 y (4/3).

**26.16. Bayram Nağı oğlu** 30 y; oğlu Şirəli 3 y (2/2).

**27.16. Kərim Nağı oğlu** 24 y; oğlu Qafar 2 y (2/3).

**28.17. Həsən Musa oğlu** 50 y; oğlanları: İsgəndər 22 y; İsmayıl 6 y; Məmməd 2 y (4/2).

**29.18. Kərbəlayı Hüseyn Baba oğlu** 45 y; oğlanları: Baba 6 y; Rəhim 3 y;

***qardaşı*** Qurban 38 y; onun oğlanları: Əli 6 y; Yusif 1 y (6/6).

**30.18. Oruc Kərbəlayı Baba oğlu** 20 y (1/3).

**31.19. Məhərrəm Musa oğlu** 54 y; oğlanları: Mustafa 22 y; İsmayıl 17 y; Abdi 8 y; Məmməd 5 y (5/5).

**32.20. Zeynalabdin Abdulla oğlu** 54 y; oğlanları: Abdulla 20 y; Məmməd 17 y; Paşa 10 y; qardaşı Novruzun oğlanları: Vəli 17 y; Əli 5 y (6/6).

**33.20. Qasım Abdulla oğlu** 50 y; oğlanları: İsmayıl 17 y; İsa 15 y; Məsim 10 y; Əli 7 y; Babacan 4 y (6/3).

**34.20. Adıgözəl Abdulla oğlu** 42 y; oğlanları: Musa 12 y; Əli 10 y; Məmmədəli 5 y; Qulu 1 y (5/3).

**35.21. Oruc Əbdürrəhim oğlu** 41 y; oğlu Əbdürrəhim 2 y;

***qardaşı*** İbrahim 29 y; onun oğlu Məmməd 7 y (4/5).

**36.22. Kərbəlayı Mirzəli Tağı oğlu** 59 y; oğlanları: Məmməd 22 y; Əli 12 y; Nəcəf 9 y; Abbas 4 y; Tağı 2 y (6/4).

**37.23. Əmin Oruc oğlu** 54 y; oğlanları: Oruc 22 y; Paşa 16 y; Məmo 10 y; İsmayıl 3 y;

***qardaşı*** Abdulla 42 y; onun oğlanları: Məmməd 7 y; Kərim 4 y; İbrahim 2 y (9/9).

**38.25. Məmməd Nəsib oğlu** 41 y; oğlanları: Nəsib 17 y; İsmayıl 16 y; Əhməd 12 y; Hümbət 6 y; Qəhrəman 2 y (6/3).

**39.27. İsmayıl Yusif oğlu** 43 y; oğlanları: Yusif 7 y; Əli 2 y (3/2).

**40.27. Balı Yusif oğlu** 36 y; oğlu İsgəndər 6 y (2/3).

**41.30. Həsən Məmməd oğlu** 99 y; oğlanlu Qasım 43 y; onun oğlanları: Novruz 19 y; Məmməd 17 y; Əli 5 y (5/4).

**42.31. Nəsib Musa oğlu** 65 y; oğlu Məmməd 9 y (2/3).

**43.31. Novruz Musa oğlu** 44 y; oğlanları: Əhmədalı 16 y; Abbas 4 y (3/4).

**44.32. Əhməd Qasım oğlu** 79 y; oğlanları: İsmayıl 29 y; onun oğlu Məsim 3 y; Oruc 21 y; Məmməd 17 y (5/4).

**45.32. Abdulla Qasım oğlu** 46 y; oğlu Əbdülağa 10 y (2/3).

**46.32. Yusif Əhməd oğlu** 24 y; oğlanları: Nəsib 3 y; Əli 2 y (3/1).

**47.32. Mehdi Məhərrəm oğlu** 32 y; oğlu Abbas 1 y; qardaşı Əli 30 y (3/3).

**48. Mehdi Məşədi Yusif oğlu** 35 y; oğlanları: Hüseyn 16 y; oğlanları: Hüseyn 16 y; Həsən 13 y; Binnət 10 y; Məmməd 7 y (5/3).

**49.30. İsmayıl Həsən oğlu** 24 y (1/1).

**50. Qulu Məşədi Yusif oğlu** 30 y; oğlu Cavad 5 y; qardaşı Musa 28 y (3/3).

**51.29. Bayram Süleyman oğlu** 24 y; qardaşı İbad 18 y (2/1).

***Ağzıbir kəndində 51 ailə, 210 kişi və 170 qadın yaşayır.***

***Yoxlamanı həyata keçirdi və kameral təsviri tərtib etdi: Yeni Bəyazid qəzasının rəisi Ostaşov.***

**Yeni əlavə edilənlər:**

**1. Kərbəlayı Kərim Qurban oğlu** 35 y; oğlanları: Qurban 10 y; Məmməd 5 y; qardaşı oğlu Oruc 15 y (4/3).

*1879-cu ildə əlavə ediliblər.*

**2. Əhməd Aylo oğlu** 40 y; oğlanları: Rza 15 y; Əli 9 y (3/3).

*1884-cü ildə əlavə ediliblər.*

**3. İsa Həsən oğlu** 40 y; oğlanları: Cəfər 7 y; Cavad 5 y; Cabbar 7 y (4/2).

**4. İmamverdi Qurban oğlu** 43 y; oğlu Qurbanəli 5 y (2/1).

*3 və 4 nömrəli ailələr 1885-ci ildə əlavə ediliblər.*

**AĞQALA kəndi (v.101-109)**

Xəzinə torpaqlarında yaşayan vergi mükəlləfiyyətli müsəlman tatarlar.

Əkinçiliklə məşğul olurlar.

**1.5. Süleyman Ələkbər oğlu** 22 y; oğlu Ələkbər 1 y; qardaşları: Paşa 19 y; Məhərrəm 16 y; Əli 6 y (5/5).

**2.6. Kərbəlayı Allahverən Nəsib oğlu** 49 y; oğlanları: Nəsib 12 y; Əkbər 5 y; Əli 3 y (4/2).

**3.6. Namaz Nəsib oğlu** 42 y; oğlanları: Məmməd 9 y; Hüseyn 3 y (3/2).

**4.6. Əli Nəsib oğlu** 34 y; oğlanları: Kazım 12 y; Əliş 3 y (3/2).

**5.7. Abdulla Babış oğlu** 56 y; oğlu Nəcəf 16 y; qardaşı Əlinin oğlanları: İsmayıl 16 y; İsa 10 y (4/2).

**6.9. Kərbəlayı Mustafa Salman oğlu** 74 y;

***oğlanları:*** Məmməd 36 y; onun oğlu Qədim 12 y;

Qurban 19 y;

***qardaşı*** Əhməd 54 y; onun oğlu Qəhrəman 5 y (6/7).

**7.9. Salman Kərbəlayı Mustafa oğlu** 40 y; oğlu Əli 10 y (2/3).

